QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 007 (5479) 13 **yanvar** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İlham Əliyev: "Bu il ən azı 20 min köçkün yeni evlərə, mənzillərə köçürülməlidir"



Səh 3

Azərbaycan inamlı inkişafını davam etdirir



2

Prezident İlham Əliyevin Azərbaycanın 2017-ci ildə sosial-iqtisadi inkişafına dair fikirləri İtaliya KİV-lərində geniş işıqlandırılıb



4

"ABŞ Dövlət Departamentinin Azərbaycan haqqında açıqlaması tam cəfəngiyyatdır"



3

ABŞ Dövlət Departamentinin Azərbaycana münasibəti ədalətsizdir



8

Fuad Muradov: Prezident İlham Əliyevin 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməsi böyük rəğbətlə qarşılandı



5

"Made in Azerbaijan" loqosu təqdim olunub




9

5

Ekspertlər Metsamor AES-i təhlükə mənbəyi hesab edirlər



9

Buraxılış imtahanlarında dəyişiklik olacaqmı?



16

Ronaldo UEFA-nın simvolik komandasında yer alıb



# Azərbaycan inamlı inkişafını davam etdirir

## İlham Əliyev: "Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq"

***21-ci yüzillikdə sürətlə inkişaf edən Azərbaycanın sosial-iqtisadi və siyasi-mədəni sahələrdə əldə etdiyi yüksək göstəriciləri böyük uzaqgörənliklə hazırlanmış inkişaf strategiyasının uğurlu tətbiqinin nəticəsidir. Hər sahədə qazandığımız uğurların təməlində Azərbaycan Prezidenti İlham Əliyevin Ulu Öndər Heydər Əliyev siyasətini layiqincə davam etdirməsi dayanır. Bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirməsi, beynəlxalq qurumların hesabatlarında islahatçı ölkə kimi yer tutması, dünyanın nüfuzlu təşkilatlarının Azərbaycanın mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul etməsi ölkəmizin seçdiyi yolun düzgün olduğunu təsdiqləyir. Bu gün Azərbaycan bütün dünyada demokratik, qüdrətli və öz sözünü deməyə qadir olan ölkə kimi tanınır.***

Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan ümummilli inkişaf strategiyası hər bir sahənin paralel inkişafını ən yüksək səviyyədə təmin edib və bu, davam etməkdədir. Yola saldığımız 2017-cı il də Azərbaycan üçün uğurlu il kimi yadda qaldı. Dünyada qanlı münaqişələr, müharibələr baş verdiyi və ictimai-siyasi sabitlik pozulduğu halda, Azərbaycan sabitlik adası və dinamik inkişafda olan ölkə kimi nüfuza sahibdir.



### "...HƏTTA İQTİSADİ CƏHƏTDƏN O QƏDƏR DƏ ASAN OLMAYAN İLDƏ DƏ BİZ İNKİŞAF EDİRİK"

Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında, qeyd etdiyi kimi, yola saldığımız ildə Azərbaycan inamlı inkişafını davam etdirmiş və ölkəmizdə təhlükəsizlik tədbirləri təmin edilmişdir. Azərbaycan xalqı sülh, əmin-amanlıq şəraitində yaşamışdır və yaşayır: "Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına əsasən, Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə, 2017-ci ildə iki pillə irəliləyərək, dünya miqyasında 35-ci yerdə qərarlaşıb. Bu, çox böyük göstəricidir və ilk növbədə onu göstərir ki, hətta iqtisadi cəhətdən, o qədər asan olmayan ildə də, biz inkişaf edirik"- deyən Cənab İlham Əliyev dünya miqyasında 35-ci yeri tutmağın böyük nəticə və böyük qələbə olduğunu bildirib. Azərbaycan Prezident İlham Əliyev tərəfindən imzalanan sərəncamlar və fərmanlar iqtisadi islahatları daha da dərinləşdirdi, iqtisadi sabitlik qorundu və ölkəmiz bir çox əhəmiyyətli layihələri reallaşdırdı. Bu gün tam cəsarətlə, demək olar ki, ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın Azərbaycan modeli yaranıb. Bu model əsasında uğurla həyata keçirilən və yeni çalarlarla zənginləşdirilən sosial-iqtisadi siyasətin nəticələri Azərbaycanın həm də beynəlxalq imicinin və dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə gətirib çıxarıb. Prezident İlham Əliyevin uzaqgörən və praqmatik xarici siyasət strategiyasının qanunauyğun nəticəsi kimi, Azərbaycan beynəlxalq münasibətlər sisteminin nüfuz və güc dairəsində sürətlə irəliləməkdədir.

### "2017-Cİ İLİ "İSLAM HƏMRƏYLİYİ İLİ" ELAN ETMƏYİMİZ İSLAM ALƏMİNDƏ ÇOX BÖYÜK DƏSTƏYƏ VƏ RƏĞBƏTƏ SƏBƏB OLDU"

Həqiqətən də, Azərbaycan bütün istiqamətlər üzrə böyük uğurlara imza atıb. Bütün dünyada böyük hörmətə, nüfuza malik olan Azərbaycan prinsipial və ədalətli mövqeyi ilə seçilir. Yola saldığımız ötən ildə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olundu. İslam həmrəyliyinin bərqərar olmasında Azərbaycanın özünəməxsus mövqeyinin möhkəmləndirilməsini təmin etmək məqsədi ilə "İslam Həmrəyliyi İli" elan edildi və islam dünyasının bir parçası olan Azərbaycan il ərizində dostluğun möhkəmlənməsinə, insani dəyərlərə, sülh və əmin-amanlığa, birgəyaşayışa öz töhfələrini verdi və sülsevər siyasətini bir daha dünyaya bəyan etmiş oldu. Prezident İlham Əliyevin vurğuladığı kimi, il ərzində həm Azərbaycanda, həm də xaricdə keçirilmiş bir çox tədbirlər göstərir ki, bu qərar - 2017-ci ili "İslam Həmrəyliyi İli" elan etməyimiz islam aləmində çox böyük dəstəyə və rəğbətə səbəb oldu.

### "BU RESPUBLİKANI AZƏRBAYCAN XALQI YARADIB VƏ BİR DAHA BÜTÜN DÜNYAYA NÜMAYİŞ ETDİRİB Kİ, AZƏRBAYCAN XALQI BÖYÜK XALQDIR, İSTEDADLI XALQDIR, AZAD XALQDIR"

Bu il Şərqin ilk demokratik respublikası - Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixindən 100 il ötür. Qürur gətirəcək bu hadisə Azərbaycanın tarixidir. Bu tarixdə Azərbaycan Xalq Cümhuriyyəti istiqlaliyyətimizi elan edərək, xalqımızın müstəqillik əzmini nümayiş etdirdi. Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi əbədi yer tutub. Belə ki, 1918-ci il mayın 28-də Şərqdə qurulan ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyəti, 23 aylıq fəaliyyəti ərzində, bir çox sahələrdə həyata keçirdiyi islahatlarla Azərbaycan tarixində mühüm bir mərhələnin əsasını qoydu. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanların ən son həddində çalışaraq, şərəflə yerinə yetirdi. Cənab Prezident çıxışında qeyd edib ki, biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır: "Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl, ən ülvi demokratik dəyərləri, nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib". Həmin dövrdə Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. XX əsrin əvvəlində Azərbaycan dövlətinin xarici siyasət prinsipləri formalaşdı və bu prinsiplər dostluq və əməkdaşlığa söykəndi. Bunlar Azərbaycan Milli Şurasının qəbul etdiyi İstiqlaliyyət Bəyannaməsində də əksini tapdı. Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan Xalq Cümhuriyyəti, ilk dəfə olaraq, Azərbaycan adlı müstəqil dövlətin əsasını qoydu.

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı bu şərəfli tarix ölkəmizdə 28 May Respublika Günü kimi qeyd edilir. Ölkə başçısı, Möhtərəm Prezidentimiz Cənab İlham Əliyev 16 may 2017-ci il tarixdə imzaladığı Sərəncamla Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinin dövlət səviyyəsində geniş qeyd edilməsini qərara almışdır: "Bu il biz müstəqilliyimizin yüz illiyini qeyd edəcəyik. Yüz il bundan əvvəl, müsəlman aləmində ilk dəfə olaraq, demokratik respublika yaradılmışdır... Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq".

Cənab Prezident yekun nitqində Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini Azərbaycan dövləti və xalqının yüksək qiymətləndirdiyini qeyd edib: "Bunu nəzərə alaraq, mən 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edirəm. İl ərzində həm ölkəmizdə, həm xaricdə bununla əlaqədar bir çox tədbirlər keçiriləcəkdir".

Bu gün Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam etdirilir. Bu sahədə qazanılmış nailiyyətlər qürur doğurur. Respublikamızda siyasi, iqtisadi və sosial islahatlar uğurla həyata keçirilir, ölkə iqtisadiyyatı inkişaf etdirilir və əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün təsirli tədbirlər görülür. Bu gün Azərbaycan, yerləşdiyi bölgədə əsas inkişaf məkanı olmaqla, nəhəng infrastruktur layihələrini icra edir, heç bir regional layihə Azərbaycanın iştirakı olmadan reallaşmır və ölkəmiz Avropanın enerji təhlükəsizliyində son dərəcə vacib faktora çevrilib. Beləliklə, Azərbaycanda bütün istiqamətlərdə böyük inkişafın müşahidə olunması, ölkəmizin bölgədə və dünyada mövqelərini gücləndirməsi ilə müşayiət olunur. Müstəqilliyimizin və ideoloji dayaqlarımızın daha da möhkəmləndirilməsinin, vətəndaş həmrəyliyinin bərqərar olmasının təməlində isə Azərbaycan dövlətinin milli maraqlarının qorunması və tarixi irsə bağlılıq kimi müqəddəs prinsip dayanır.

Artıq 27 ildir ki, müstəqilliyimizin bəhrələrini görürük və 28 May Azərbaycan Respublikasının müstəqillik arzularının gerçəkləşdiyi gün olaraq hər zaman xatırlanır.

**Nəzakət ƏLƏDDİNQIZI**

# İlham Əliyev: “Bu il ən azı 20 min köçkün yeni evlərə, mənzillərə köçürülməlidir”

***Məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bu baxımdan 2017-ci il də əlamətdar il olub, 2300 ailə yeni evlərə, mənzillərə köçürülüb. Beləliklə, 12 mindən çox köçkün yeni evlərlə, mənzillərlə təmin edilib. Cocuq Mərcanlı kəndinin bərpası tarixi nailiyyətdir, indi 150 evdən ibarət gözəl qəsəbə yeni həyatını yaşayır. Köçkünlər o qəsəbəyə qayıdıblar, qayıdırlar və bu, tarixi, əlamətdar hadisədir.***



AZƏRTAC xəbər verir ki, bu fikirləri Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bildirib.

Dövlətimizin başçısı deyib ki, bu il yeni köçkün şəhərcikləri, qəsəbələri salınacaq. Bu il yeni mənzillərlə təmin ediləcək köçkünlərin sayı keçən illə müqayisədə təxminən iki dəfə artacaq. Əgər 2017-ci ildə 12 min insanı biz yeni mənzillərə, evlərə köçürmüşüksə, bu il ən azı 20 min köçkün yeni evlərə, mənzillərə köçürülməlidir. Bu rəqəm çox da ola bilər.

Prezident İlham Əliyev deyib: “Azərbaycan dövləti Cocuq Mərcanlının timsalında bir daha göstərib ki, heç vaxt işğalla barışmayacaq. Azərbaycan xalqı heç vaxt bu vəziyyətlə barışmayacaq və bütün köçkünlər bir arzu ilə yaşayırlar ki, tezliklə öz doğma torpaqlarına qayıtsınlar. Cocuq Mərcanlının qısa müddət ərzində bərpası, yenidən qurulması onu göstərir ki, işğaldan azad ediləcək bütün ərazilərdə biz qısa müddət ərzində bütün təmir-bərpa işlərini aparacağıq, şəhərləri, kəndləri yenidən quracağıq və bu gün ağır vəziyyətdə, dağılmış vəziyyətdə olan şəhər və kəndlərimizə tezliklə həyat qayıdacaq”.

Dövlətimizin başçısı qeyd edib ki, 2017-ci ildə Şıxarx qəsəbəsində 1170 ailə üçün yeni şəhərciyin salınması da əlamətdar hadisədir. Təkcə ona görə yox ki, böyük köçkün şəhərciyi yaradılıb. Ona görə ki, Şıxarx qəsəbəsi vaxtilə işğal altında olan ərazidir. Bu ərazi erməni işğalçılarından təmizlənib, azad edilib və o yerdə yeni böyük şəhərciyin salınması bir daha onu göstərir ki, Dağlıq Qarabağ bizim əzəli torpağımızdır. Bu, həmişə belə olub, bu gün belədir, sabah da belə olacaq və Dağlıq Qarabağ probleminin həlli ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkündür. Bunun heç bir başqa yolu yoxdur.

## *Rəsmi xronika*

Azərbaycan Prezidentinin 2018-ci il 12 yanvar tarixli Fərmanı ilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin strukturu təsdiq edilib.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikasında nəqliyyat, rabitə və yüksək texnologiyalar sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Əhəd Abıyevin 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Əhəd Mikayıl oğlu Abıyev 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

# Mariya Zaxarova: “ABŞ Dövlət Departamentinin Azərbaycan haqqında açıqlaması tam cəfəngiyyatdır”



***ABŞ Dövlət Departamentinin Azərbaycan haqqında açıqlaması tam cəfəngiyyatdır. Bunu o şəxslər deyə bilərdi ki, bu ölkədə olmayıblar.***

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova cümə günü bu sözləri keçirdiyi brifinqdə Azərbaycanın və Rusiyanın ABŞ vətəndaşlarının səfər etməsi tövsiyə olunmayan ölkələr siyahısına daxil olunmasını şərh edərək söyləyib.

AZƏRTAC xəbər verir ki, M.Zaxarova Azərbaycanın istər idman, istərsə də mədəniyyət sahəsində beynəlxalq miqyaslı tədbirləri çox uğurla keçirməsini qeyd edib. O deyib: “Görünür, bizim qərbli tərəfdaşlarımız elə hesab edirlər ki, bizi həmişə “tonusda” saxlamaq lazımdır. Onların fikrincə, nəyəsə nail ola bilən, o cümlədən turizm sahəsində uğur qazanan, qonaqpərvər ölkələr unutmamalıdırlar ki, təbliğat vasitəsilə, uydurma materiallar vasitəsilə müəyyən təhlükə obrazı yaratmaq həmişə mümkündür. Bunu o adamlar yaza bilərdi ki, heç vaxt Bakıda olmayıblar. Mən dəfələrlə, həm də böyük məmnuniyyətlə Azərbaycanda, Bakıda olmuş, onun tarixi mərkəzini, restoranlarını, muzeylərini görmüş, orada çoxlu dostları olan bir insan kimi tam səmimiyyətlə deyə bilərəm ki, turistlərin Azərbaycana getmələrini məsləhət görməmək sadəcə cəfəngiyyatdır. Bunu yalnız o adamlar deyə bilər ki, onların Azərbaycan barədə təsəvvürləri yoxdur, bu ölkənin mədəniyyəti, onun siyasi reallıqları haqqında heç nə bilmirlər. Ümumiyyətlə, mən həmin adamların Azərbaycanı xəritədə göstərə biləcəklərinə şübhə edirəm”.

M.Zaxarova vurğulayıb ki, ABŞ Dövlət Departamentinin yanvarın 10-da dərc edilmiş tövsiyələri ciddi anlaşılmazlıq doğurur. Həmin tövsiyələrdə Rusiyaya elə bir ölkə kimi qələmə verilir ki, guya oraya getməmək yaxşıdır, çünki “orada təhlükəsizlik baxımından ciddi risklər var, vəziyyət hər an dəyişə bilər”.

RF XİN-in rəsmi nümayəndəsi deyib: “Onların nəyi nəzərdə tutduqlarını anlamaq mümkün deyil. Heç bir əsası olmayan bu cür bəyanatların məqsədi ABŞ-da antirusiya isteriyasına növbəti təkan vermək, amerikalılar arasında Rusiyaya qarşı əsl heyvani qorxu hissi yaymaqdır”. O, ABŞ Dövlət Departamentinin bu yaxınlarda dəhşətli terror aktları törədilmiş Böyük Britaniya, Fransa, İspaniya və Belçikanı daha təhlükəsiz ölkələr hesab etməsini “tam absurd” adlandırıb.


O conductă subterană de gaze din Azerbaidjan aduce câştiguri însemnate Greciei

Like Share Be the first of your friends to like this.

miercuri, 00:00

Autor: Catalina Apostoiu

Într-o perioadă în care Grecia încearcă cu disperare să atragă investiţii străine directe, o conductă ce transportă gaze din Azerbaidjan în Europa arată ce diferenţă pot face astfel de proiecte, scrie Bloomberg.

Producţia de metale de bază a ţării s-a aflat la baza unei modeste creşteri a sectorului manufacturier în 2017, de 21%.

În spatele creşterii se află cererea de conducte venită din partea Trans-Adriatic Pipeline, un proiect de 878 km aflat în construcţie din 2016.

Conducta arată impactul pe care proiecte individuale pot influenţa datele macroeconomice ale unei ţări ca Grecia. Ţara va trebui să depună însă eforturi suplimentare pentru a-şi creşte volumul total al investiţiilor, care au avansat cu doar 2,6% în primele nouă luni ale anului trecut.

# “Ziarul Financiar”: TAP Yunanıstana qazanc gətirir

Rumıniyanın nüfuzlu iqtisadi nəşri “Ziarul Financiar” (Maliyyə qəzeti) “Bloomber”ə istinadən yazır ki, Yunanıstan birbaşa iqtisadiyyatına xarici sərmayələr axtardığı zaman Azərbaycan təbii qazını Avropaya çatdıracaq qaz kəmərinin inşası ölkə iqtisadiyyatına müsbət təsir göstərir. Bunun səbəbi uzunluğu 878 kilometr olan “Trans-Adriatik” qaz boru kəmərinin (TAP) inşasında istifadə olunun metal detalların 2017-ci ildə Yunanıstanda istehsalının 27 faiz artmasıdır. Nəşr ölkənin xarici sərmayələrin daha artıq cəlb edilməsi istiqamətində səy göstərməsinə ehtiyac olduğunu yazır. Yunanıstanda birbaşa xarici sərmayələrin həcmi keçən ilin 9 ay ərzində yalnız 2,6 faiz artmışdır.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

13 yanvar 2018-ci il

# Prezident İlham Əliyevin Azərbaycanın 2017-ci ildə sosial-iqtisadi inkişafına dair fikirləri İtaliya KİV-lərində geniş işıqlandırılıb

***İtaliyanın "Scenari İnternazionali", "Agenparl", "Eurasianews", "Agenzia Nova" kütləvi informasiya vasitələrində Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyevin fikirlərinə istinadən geniş məqalələr dərc olunub.***




Məqalələrdə Prezident İlham Əliyevin 2017-ci ildə Azərbaycanın sürətlə və uğurla inkişaf etməsi, bütün sahələrdə əldə edilmiş nəticələrin ölkənin ümumi inkişafına böyük töhfə verməsi, Azərbaycan xalqının 2017-ci ildə də sabitlik və təhlükəsizlik şəraitində yaşaması ilə bağlı fikirləri oxucuların diqqətinə çatdırılıb. Dövlət başçısının Azərbaycanda sabitliyin mənbəyinin Azərbaycan xalqı, onun iradəsi və eyni zamanda, hökumətin apardığı siyasətin təşkil etməsi, xalq-iqtidar birliyinin uğurların əsas şərti olması, bu uğurlu siyasətin təməlində xalq tərəfindən göstərilən dəstəyin dayanması və bu müsbət meyillərin gücləndirilməsinin Azərbaycanın uzunmüddətli, dayanıqlı inkişafını təmin edəcəyi fikri xüsusi qeyd olunur.




Bildirilir ki, Prezident İlham Əliyev nitqində 2017-ci ilin Azərbaycanda dərin iqtisadi islahatlar ili olduğunu, həm Dünya Bankı, həm Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycanda gedən proseslərə yüksək qiymət verdiyini, Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına əsasən Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyinə görə 2017-ci ildə iki pillə irəliləyərək dünya miqyasında 35-ci yerdə qərarlaşdığını, ölkənin MDB məkanında liderlik mövqeyini qoruyaraq möhkəmləndirdiyini qeyd edib.

Ölkənin iqtisadi göstəricilərinə diqqət çəkilən yazılarda Prezident İlham Əliyevə istinadən vurğulanır ki, 2017-ci ildə Azərbaycanda iqtisadi sahədə çox böyük uğurlar əldə edilib, iqtisadiyyat artıb, xüsusilə də qeyri-neft sektorunda artım 2,5 faiz təşkil edib, valyuta ehtiyatları 4,5 milyard dollar artaraq 42 milyard dollar təşkil edib və adambaşına düşən valyuta ehtiyatlarının həcminə görə Azərbaycan dünya miqyasında ön yerlərdən birini tutub.

Bildirilir ki, ötən il Azərbaycan iqtisadiyyatına 14,6 milyard ABŞ dolları həcmində investisiya yatırılıb və bu da Azərbaycanın həm yerli, həm də xarici investorlar üçün cəlbedici ölkə olduğunun göstəricisidir. 2017-ci ildə ölkənin ixrac potensialı, o cümlədən ixrac 19 faiz, qeyri-neft ixracı isə 24 faiz artıb, ticarət balansında müsbət saldo 6,2 milyard dollar təşkil edib, xarici turistlərin gəlişi də rekord səviyyəyə çatıb.

Yazılarda diqqətə çatdırılır ki, 2017-ci ildə hökumətin sosial siyasətinin nəticələri barədə də danışan Prezident İlham Əliyev il ərzində ölkədə 177 min daimi olmaqla 221 min yeni iş yerinin açıldığını və bunun son illər ərzində açılan iş yerlərinin sayına görə rekord göstərici olduğunu, habelə ilin yekunlarına görə Azərbaycanda işsizliyin 5 faiz, yoxsulluğun isə 5,4 faiz səviyyəsində olduğunu, bunun da dünya miqyasında ən yaxşı nəticələrdən biri olduğunu deyib və əlavə edib ki, sosial infrastruktur layihələri çox böyük əhəmiyyət daşıyır, hökumətin siyasətinin istiqamətini əks etdirir, hökumət sosial məsələlərin həlli üçün əlindən gələni edir və böyük işlər görür.

Məqalələrdə Prezident İlham Əliyevin Azərbaycanda məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilmiş işlər barədə də fikirlərinə yer verilir, o cümlədən Cocuq Mərcanlı kəndinin bərpası və Şıxarx qəsəbəsində yeni şəhərciyin qurulması barədə danışdığı. Prezident İlham Əliyevə istinadən bildirilir ki, Azərbaycan dövləti Cocuq Mərcanlının timsalında bir daha göstərib ki, heç vaxt işğalla barışmayacaq. Bütün köçkünlər bir arzu ilə yaşayırlar ki, tezliklə öz doğma torpaqlarına qayıtsınlar. Habelə qeyd olunur ki, Prezident İlham Əliyev Şıxarx qəsəbəsinin erməni işğalçılarından təmizlənərək azad edildiyini bildirib və əlavə edib ki, orada yeni böyük şəhərciyin salınması bir daha onu göstərir ki, Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır, bu, həmişə belə olub, bu gün də belədir, sabah da belə olacaq. Dağlıq Qarabağ probleminin həlli ancaq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkündür və bunun heç bir başqa yolu yoxdur.




Bildirilir ki, beynəlxalq ictimaiyyətin münaqişə ilə bağlı Azərbaycanın haqlı mövqeyinə dəstəyindən danışan Prezident İlham Əliyev ölkənin prinsipial mövqeyinin ədalətli, beynəlxalq hüquqa əsaslanan və daha çox beynəlxalq dəstək qazanan mövqe olduğunu vurğulamaqla ötən il ərzində bunu əks etdirən bir neçə önəmli hadisənin baş verdiyini və onlardan birinin Dağlıq Qarabağda separatist rejim tərəfindən keçirilmiş qanunsuz "referendum"un dünya ictimaiyyəti tərəfindən tanınmaması olduğunu və bunun da bütün dünya tərəfindən Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi kimi tanındığını göstərdiyini deyib.

Yazılarda qeyd olunur ki, dövlət başçısı ilin sonunda Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Zirvəsində qəbul edilmiş Bəyannamədə də "Şərq tərəfdaşlığı"na üzv olan ölkələrin ərazi bütövlüyü və suverenliyinin Avropa İttifaqı tərəfindən birmənalı şəkildə dəstəklənməsinin işğalçı Ermənistana növbəti zərbə olduğunu, Azərbaycanın öz prinsipial mövqeyindən geri çəkilməyəcəyi və ölkənin ərazi bütövlüyünün bərpasının əsas məsələ olduğunu diqqətə çatdırıb. Habelə Prezident İlham Əliyevə istinadən Azərbaycanın öz hərbi gücünü də artırdığı, bu gün beynəlxalq reytinqlərə görə, Azərbaycan Ordusunun dünya miqyasında güclü ordular sırasında olduğu, ordu üçün nə lazımdırsa edildiyi və bundan sonra da gücləndəcəyi və istənilən tapşırığı yerinə yetirməyə hazır olduğu qeyd edilir.

Dövlət başçısının 2017-ci ili energetika sahəsində tarixi hadisələrin baş verdiyi il kimi xarakterizə etdiyi və bu hadisələrdən birinin "Azəri-Çıraq-Günəşli" yatağı üzrə kontraktın müddətinin 2050-ci ilə qədər uzadılması olduğu bildirilərək, bunun ən azı 2050-ci ilə qədər hasilat səviyyəsinin sabit qalmasına, Azərbaycanın neft sektoruna xarici investorlar tərəfindən bundan sonra da böyük həcmdə - on milyardlarla dollar həcmində ölçülən sərmayə qoyulmasına və Azərbaycanın da bonus kimi 3,6 milyard dollar qazanmasına imkan yaradacağı vurğulanır.

Bildirilir ki, Prezident İlham Əliyev Cənub Qaz Dəhlizinin də uğurlu icrasının təmin edildiyini, "Şahdəniz-2" layihəsinin icrasının 99 faizə çataraq demək olar ki, yekunlaşdığını, Azərbaycanı Gürcüstanla birləşdirən Cənubi Qafqaz boru kəmərinin 93 faizinin, TANAP layihəsinin icrasının 90 faizinin və TAP layihəsinin icrasının 60-62 faizinin həyata keçirildiyini, bütün bunların Cənub Qaz Dəhlizinin artıq reallaşdığını göstərdiyini vurğulayıb.

Məqalələrdə dövlətimizin başçısının Bakı-Tbilisi-Qars dəmir yolunun açılışının nəinki Azərbaycan üçün, bölgə və dünya üçün önəmli hadisə olduğunu və bu tarixi layihənin icrasının ölkəni beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevirəcəyini vurğuladığı, həmçinin Şimal-Cənub nəqliyyat dəhlizinin icrası istiqamətində önəmli addımlar atıldığını diqqətə çatdırdığı da qeyd olunur.

Prezident İlham Əliyevin Azərbaycanın İslam həmrəyliyinin möhkəmləndirilməsi və multikulturalizm dəyərlərinin təşviqinə verdiyi töhfələrdən də danışdığı bildirilir və onun aşağıdakı fikirlərinə yer verilir: "2017-ci ili "İslam Həmrəyliyi İli" elan etməyimiz İslam aləmində çox böyük dəstəyə və rəğbətə səbəb oldu. Ötən il Azərbaycanda İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Bizim siyasi, diplomatik, iqtisadi uğurlarımıza bir uğur da əlavə edildi - idman uğurumuz. Bu Oyunlar ən yüksək səviyyədə keçirilmişdir. İl ərzində keçirilmiş çoxlu tədbirlər bir daha göstərir ki, Azərbaycan dünya miqyasında həm İslam həmrəyliyi işlərinin təşkili, eyni zamanda, multikulturalizmin təbliği üçün əvəzolunmaz ölkəyə çevrilir".

Məqalələrdə Prezident İlham Əliyevin bu il Azərbaycanın müstəqilliyinin yüz illiyini qeyd edəcəyini və yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq Azərbaycanda demokratik respublika yaradıldığını vurğuladığı deyilir. Dövlət başçısının "Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir" fikirləri oxucuların diqqətinə çatdırılır.

Sonda Prezident İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin Azərbaycan dövləti və xalqı tərəfindən yüksək qiymətləndirildiyini bildirdiyi və 2018-ci ili ölkədə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etdiyi, il ərzində həm ölkə daxilində, həm də xaricdə bununla əlaqədar bir çox tədbirlərin keçiriləcəyini bildirdiyi vurğulanır.

***Asiman Əsədov***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Roma***

# Ekspertlər Metsamor AES-i təhlükə mənbəyi hesab edirlər


**Anhaltende Kritik an Kraftwerk Mezamor**

**Mit dem AKW Mezamor betreibt Armenien das einzige Kernkraftwerk in der gesamten Kaukasus-Region. Die Anlage liegt rund eine Autostunde westlich der Hauptstadt Eriwan inmitten eines Erdbebengebiets. Wenige Kilometer von dem Kraftwerk entfernt treffen die arabische und eurasische Erdplatte aufeinander und sorgen für eine hohe seismische Aktivität.**

Ob ein Ort erdbebengefährdet ist, bestimmt seine Nähe zu einer tektonischen Verwerfung. Das AKW Mezamor ist offiziellen Angaben zufolge rund 19 Kilometer von einer solchen Stelle entfernt - was die armenische Regierung als ausreichend ansieht, wie die Monatszeitung „Le Monde Diplomatique" schreibt. Wie hoch das Erdbebenrisiko in der Region tatsächlich ist, ist aber unklar. Laut der NGO Green Unions of Armenia soll eine von der Regierung in Auftrag gegebene Studie aus dem Jahr 1992 ergeben haben, dass sich die Risikozone schon in unmittelbarer Nähe, lediglich einen halben Kilometer von der Anlage befinde, berichtet die Zeitung. Die Studie wurde jedoch nicht veröffentlicht. Das armenische Energieministerium hält sich bedeckt.

**AKW nach Erdbeben zunächst stillgelegt**

Die Region wurde in der Vergangenheit wiederholt von starken Erdbeben erschüttert. Rund 20 Erdbeben mit Stärken von 5,5 bis 7,5 trafen seit dem 9. Jahrhundert im Umkreis von 45 Kilometern um das Atomkraftwerk Mezamor die Region, verzeichnet der armenische Nationalatlas. Fast 20 Jahre ist es her, dass ein verheerendes Erdbeben die nordarmenische Kleinstadt Spitak erschütterte. 25.000 Menschen starben, bis zu eine Million waren auf einen Schlag obdachlos. Das AKW nahm angeblich keinen Schaden, die Behörden schalteten in der Folge die Reaktoren des Kernkraftwerks für mehrere Jahre ab.

***Avstriya Teleradiosunun (ORF) internet saytında Metsamor AES-in vəziyyəti ilə bağlı geniş məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, "Metsamor AES-lə bağlı davamlı tənqid" adlı məqalədə Fransanın "Le Monde Diplomatique" qəzeti, Beynəlxalq Atom Enerjisi Agentliyinin (BAEA) hesabatları, Vyana Ekologiya İnstitutu və İqtisadiyyat və Enerji üzrə Alman Federal İdarəsinə istinadən AES-lə bağlı ümumi mənzərə canlandırılıb, onun hazırkı vəziyyəti və region üçün təhlükəsinə dair faktlar və məlumatlar yer alıb.***

Məqalənin giriş hissəsində paytaxt Yerevandan avtomobillə cəmi bir saatlıq məsafədə yerləşən Metsamor AES-in seysmik həssas zonanın "düz ortasında" inşa edildiyi diqqətə çatdırılır. Qeyd edilir ki, AES-dən bir neçə kilometr məsafədə Ərəb və Avrasiya tektonik plitələrinin toqquşma zolağı keçir və bu toqquşma yüksək seysmik aktivliyə səbəb olur. Ermənistan hökumətinin AES-in tektonik zonadan 19 kilometr məsafədə yerləşməsini rəsmi şəkildə iddia etməsinə baxmayaraq, regionda zəlzələ riskinin hansı səviyyədə olması sual altındadır. "Green Unions of Armenia" qeyri-hökumət təşkilatı Ermənistan hökuməti tərəfindən hələ 1992-ci ildə sifariş verilmiş araşdırmaya istinadla bildirir ki, risk zonası Metsamor AES-in lap yaxınlığından, cəmi yarım kilometr məsafədən keçir. Lakin bu araşdırma heç zaman geniş ictimaiyyətə açıqlanmayıb və Ermənistanın energetika nazirliyi bu məsələdə heç bir açıqlama vermək istəmir.

Ermənistanın milli atlasında yer alan məlumatlara görə, Metsamor AES-in 45 kilometr radiusunda yerləşən regionda bizim eranın IX əsrindən bəri 5,5-7,5 bal gücündə təqribən 20 zəlzələ baş verib və 25 min insanın həyatına son qoyan sonuncu ən güclü zəlzələ isə ötən əsrin sonuna təsadüf edir. Ermənistan rəsmilərinin həmin zəlzələ zamanı AES-ə heç bir zərərin dəyməməsi barədə iddiaları isə nə jurnalistlərə, nə də ekspertlərə inandırıcı gəlməyib. Lakin AES-in problemləri təkcə onun tektonik zonada yerləşməsi ilə bitmir.

Daha sonra qeyd edilir ki, qonşu dövlətlər olan Azərbaycan və Türkiyə ilə problemlərə görə blokada şəraitində qalan Ermənistan enerji təminatında Metsamor AES-dən əl çəkmək fikrində deyil. Rəsmi məlumatlara görə, 1993-cü ildən bəri AES-in texniki təchizatına 100 milyon avro vəsait cəlb olunsa da, reaktorlar üzərində qəza baş verdiyi halda radioaktiv şüaların ətrafa yayılmasını əngəlləyən təhlükəsizlik çənbərləri mövcud deyil. BAEA ekspertlərinin 2015-ci ildə həyata keçirdikləri yoxlamada çoxlu sayda texniki qüsur və çatışmazlıqlar aşkarlanaraq, nəzarət və təhlükəsizlik üçün 60-dan artıq tövsiyəni əhatə edən kataloq tərtib edilib. Nüvə ekspertlərinin əsas narahatlığı isə Ermənistanın bütün beynəlxalq tələbləri həyata keçirmək üçün kifayət qədər maliyyə resurslarına malik olmaması və ölkənin enerji təminatını nüvə reaktorları olmadan təsəvvür edə bilməməsidir.

Məqalədə Avropa İttifaqının da bu AES-in şəbəkədən ayrılmasında maraqlı olduğu qeyd edilir. Hətta AES-in fəaliyyətinin dayandırılacağı təqdirdə Aİ-nin Ermənistana təxminən 100 milyon avro məbləğində yardım təklifinin də qəbul olunmadığı göstərilib. Avstriya Ekologiya İnstitutu isə hələ 2001-ci ildə Metsamor AES-i Avropadakı ən təhlükəli AES kimi dəyərləndirib.

Bütün xəbərdarlıqlara baxmayaraq Ermənistan nüvə enerjisindən əl çəkmək fikrində deyil. 2009-cu ildə ölkənin enerji tələbatının 45 faizi, hazırda isə 31 faizi Metsamor AES hesabına ödənilir. Bununla belə, ölkə nüvə qəzası baş verəcəyi fövqəladə hallara qətiyyən hazır deyil. Yeganə təhlükə mənbəyi təkcə istismar müddəti ötmüş AES deyil, nüvə tullantılarının saxlanma şəraiti də gələcəkdə böyük problemlərə gətirib çıxara bilər. Tullantıların saxlandığı çəlləklərin sıradan çıxması asanlıqla ətraf mühitdə radioaktivliyi yaya bilər.

Sonda bildirilir ki, hökumət bütün xəbərdarlıqlara baxmayaraq, Metsamor AES-in istismar müddətini 2026-cı ilədək uzadıb. AES-in əhatə dairəsində paytaxt Yerevan da daxil olmaqla bir milyondan artıq insan yaşayır. AES-lə bağlı fövqəladə hallara dair fəaliyyət planı olmayan Ermənistan hökuməti ilk növbədə region üçün böyük təhlükəyə göz yumur.

# "Prezident İlham Əliyevin qərarı Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdə yeri və rolunun dərindən öyrənilməsinə xidmət edəcək"

***Prezident İlham Əliyevin 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməsi Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdə yeri və rolunun, ümumiyyətlə, tariximizin dərindən öyrənilməsinə xidmət edəcək.***



Bu fikri AZƏRTAC-a açıqlamasında tarixçi alim Kərəm Məmmədov bildirib.

Kərəm Məmmədovun sözlərinə görə, tarixçilərin üzərinə daha böyük məsuliyyət düşür ki, Azərbaycanın dövlətçilik tarixi, xüsusilə tariximizdə mühüm yeri olan Xalq Cümhuriyyəti haqqında gələcək nəslə geniş məlumat versinlər. O qeyd edib ki, Müasir Azərbaycan Respublikası müsəlman Şərqində ilk dünyəvi, demokratik dövlət kimi tarixə düşən Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisidir. Prezident İlham Əliyevin bu qərarı dövlətçiliyimizdə varisliyin qorunması baxımından mühüm qərardır. Bu qərar, həmçinin imkan verəcək ki, Azərbaycan Xalq Cümhuriyyəti ilə əlaqədar çoxlu sayda sənədli filmlər çəkilsin, kütləvi informasiya vasitələrində müxtəlif materiallar yayılsın.

Alim deyib ki, Azərbaycan Xalq Cümhuriyyəti süquta uğrayandan sonra bolşevizmin əsas siyasi ideologiyası dövlətçilik şüurunun insanların beynindən silinməsi idi. O zamanlar buna nisbətən nail olunmuşdu. Lakin Azərbaycan Prezidentinin bu qərarı insanların öz keçmişini dərindən öyrənməsində mühüm rol oynayacaq. Bu, həm də cümhuriyyət tariximizin hər bir sahəsini araşdırmağa imkan verəcək. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, Prezidentin 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməsi tarixi qərar, dövlətçilik tariximizlə bağlı atılan çox önəmli addımdır.

# Fuad Muradov: Prezident İlham Əliyevin 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməsi böyük rəğbətlə qarşılandı



Prezident İlham Əliyevin 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməsi Azərbaycan cəmiyyəti, eyni zamanda, ölkəmizin hüdudlarından kənarda yaşayan soydaşlarımız tərəfindən böyük rəğbətlə qarşılandı. Hər bir azərbaycanlı dövlətimizin başçısı ilə qürur duymalı və onun ətrafında sıx birləşməlidir. Bu qərardan irəli gələn öhdəliklərlə bağlı hər bir Azərbaycan vətəndaşı Prezidentə dəstək olmalıdır. Ümumiyyətlə, Azərbaycan Prezidentinin indiyə kimi atdığı hər bir addım ölkəmizin milli mənafeyinə, dövlətimizin maraqlarını qorumaqla perspektivli inkişafa xidmət edib.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclisin gənclər və idman komitəsinin sədri Fuad Muradov bildirib.

Fuad Muradov deyib: "Prezident İlham Əliyev qeyd edib ki, indiki müstəqil Azərbaycan dövləti Azərbaycan xalqına məxsusdur. Bu varisliyi dövlətimiz öz üzərinə götürür. Ölkə başçısı son addımı ilə əvvəllər söylədiyi "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" fikrini bir daha təsdiqlədi. Hər kəs bunun şahididir ki, İlham Əliyev bütün azərbaycanlıların, eyni zamanda, ölkə hüdudlarından kənarda yaşayan həmyerlilərimizin Prezidentidir. Bunu hər bir Azərbaycan vətəndaşı görür və yüksək qiymətləndirir".

Komitə sədri bildirib ki, müsəlman Şərqində ilk demokratik respublikanın Azərbaycanda qurulması, Şərqdə ilk dəfə olaraq qadınların müstəqil şəkildə seçkilərə qatılması tariximizdə qürurverici hadisə kimi yaddaşlara həkk olunub. Azərbaycan Prezidentinin bu tarixi qərarı ilə biz öz dövlətimizi dünya miqyasında təbliğ etmək imkanlarına malik olacağıq. Fuad Muradov bildirib ki, 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi dövlətçiliyimizin daha da inkişaf etdirilməsi, dünya səviyyəsində Azərbaycanın tanıdılması istiqamətində atılan mühüm addımların davamıdır. Azərbaycan gəncləri Prezidentimizin bu addımını alqışlayır və hər zaman dövlətçiliyimizin, müstəqilliyimizin qorunub saxlanmasına töhfə verəcək, ölkəmizin inkişafı naminə gördüyü hər bir işdə ona dəstək olacaq.

# Bu vaxtadək dünya bazarına 467 milyon tonadək Azərbaycan nefti çıxarılıb



2018-ci il yanvarın 1-dək dünya bazarına 466,7 milyon ton Azərbaycan nefti çıxarılıb. Bu barədə AZƏRTAC-a müsahibəsində SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə deyib. O bildirib ki, bu həcmin 350 milyon tona qədəri Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft boru kəməri ilə nəql edilib.

# Azərbaycan bir çox istiqamətlər ürzə regional və qlobal liderə çevrilib

## *Davamlı inkişaf göstəriciləri və sosial indikatorlara görə Azərbaycan "Böyük iyirmilik" və "Böyük yeddilik" ölkələrinin əksəriyyətini üstələyir*

***Müstəqil Azərbaycanın iqtisadi və sosial sahədə qazandığı nailiyyətləri, qlobal əhəmiyyətli təşəbbüsləri, ildən-ilə artan beynəlxalq nüfuzu ölkəmizi bir çox istiqamətlərdə regional və qlobal liderə çevirib. Davamlı inkişaf naminə yaradılan iqtisadi baza əsasında Azərbaycan innovativ tərəqqi dövrünü yaşayır. Bu tərəqqi, davamlı inkişaf göstəriciləri və sosial indikatorlara görə Azərbaycan "Böyük iyirmilik" və "Böyük yeddilik" ölkələrinin əksəriyyətini üstələyir. Əlbəttə ki, qazanılan hər bir uğurun təməlində Prezident İlham Əliyevin müəllifi olduğu Azərbaycanın hərtərəfli inkişafına və tərəqqisinə hesablanmış inkişaf strategiyası dayanır.***



Prezidenti İlham Əliyevin 2011-ci il 29 noyabr tarixdə imzaladığı "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə" Sərəncamı uzaq hədəflərə hesablanmış səmərəli iqtisadi siyasətin yürüdüləcəyinin təsdiqi idi. Dövlət başçısı tarixi əhəmiyyətli bu Sərəncamı ilə qarşıdakı 10 ildə hökumət səviyyəsində reallaşdırılması vacib kompleks tədbirlər sisteminin əhatə dairəsini və müddətini, habelə, icra mexanizmlərini müəyyənləşdirmək məramını izhar etmişdir. Sosial-iqtisadi inkişaf prosesinin davamlılığının təmini nöqteyi-nəzərindən respublikanın perspektiv inkişaf strategiyasının yaxın və uzaq dəqiq hədəflər əsasında düzgün müəyyənləşdirilməsi, reallığa adekvat elmi-iqtisadi proqnozların, təhlillərin irəli sürülməsi son dərəcə vacib məsələlərdən biri idi. Bu reallığı düzgün müəyyənləşdirən Prezident İlham Əliyev hər bir mərhələ üçün respublikanın qarşısında duran vəzifələri dəqiq müəyyənləşdirməklə ölkənin bütün resurslarını bu istiqamətdə səfərbər etdi və Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının əsas hədəflərini və qarşıda dayanan strateji məqsədlərini açıqladı. Qlobal məkanda mürəkkəb siyasi-iqtisadi proseslərin davam etdiyi və iqtisadiyyata xarici neqativ təsirlərin gücləndiyi zamanda Azərbaycan Prezidenti yeni çağırışlara uyğun islahatlara başladı.

"2016-cı il dərin islahatlar ili olacaq" - deyən dövlət başçısının qəbul etdiyi mühüm qərarlar, imzaladığı fərman və sərəncamlara əsasən, yeni iqtisadi strategiya start götürdü. Elmi şəkildə həyata keçirilən iqtisadi islahatlara əsasən, mühüm qurumlar yaradıldı. Azərbaycan Respublikası Prezidentinin İqtisadi İslahatlar üzrə Köməkçisi Xidmətinin, Maliyyə Bazarlarına Nəzarət Palatasının, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin, Maliyyə Sabitliyi Şurasının, Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılmasını xüsusi qeyd etmək lazımdır. Bu qurumların yaradılmasında məqsəd ölkənin dayanıqlı iqtisadi inkişafının təmin edilməsi istiqamətində təhlil və tədqiqatlar aparmaq, analitik məlumatlar əsasında iqtisadi islahatların həyata keçirilməsi üçün təkliflər, habelə, orta və uzunmüddətli dövr üçün proqnozlar hazırlamaq idi.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Fərmanla iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına dair strateji yol xəritələrinin təsdiq olunması həm də qlobal böhrandan qorunmasını özündə ehtiva etdi. Fərman iqtisadiyyatın əsas prioritet istiqamətləri üzrə yeni hədəfləri müəyyənləşdirdi. Dayanıqlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin, inklüzivliyin və sosial rifahın daha da yüksəlməsinə xidmət edən strateji yol xəritələri hazırlandı. Bu sənəd qlobal çağırışlara cavab verərək, investisiyaların cəlbi, azad rəqabət mühiti, bazarlara çıxış və insan kapitalının inkişafı nəticəsində Azərbaycanın dünya iqtisadiyyatında mövqeyini bir qədər də gücləndirəcək mühüm sənəd oldu. İqtisadi sahədə keçid dövrünü başa vuraraq bütün sahələrdə modernləşmə mərhələsinə qədəm qoyan müstəqil Azərbaycan son 5 ildə bənzərsiz inkişaf yolu, iqtisadi tərəqqisi ilə dünya siyasi arenasında layiqli yerini daha da möhkəmləndirdi. Bu gün isə Azərbaycanın adı BMT, Dünya Bankı və digər nüfuzlu beynəlxalq qurumların qiymətləndirmələrinə əsaslanan təhlillərində, xüsusilə, vurğulanır.

İqtisadi islahatların dərinləşməsi möhkəm təməl üzərində qurulduğu üçün artıq bəhrəsini verməkdədir. İslahatların ən böyük uğurları kimi tədiyə balansında müsbət dəyişiklik, manatın sabitliyi, strateji valyuta ehtiyatlarının artması, həmçinin, əlverişli biznesin gözləntilərinin müsbətə doğru dəyişməsi xüsusi qeyd edilir.

Prezident İlham Əliyevin son illər apardığı intensiv və məqsədyönlü islahatlar iqtisadi profilli beynəlxalq reytinq agentlikləri, müstəqil ekspertlər və xarici investorlar tərəfindən yüksək qiymətləndirilir. Bütün bunların bariz nümunəsi "Doing Business 2018" hesabatında ölkəmizin mövqeyinin 8 pillə artaraq, 57-ci pilləyə yüksəlməsidir. Hesabatdan da göründüyü kimi, sözügedən beynəlxalq indeks tərəfindən Azərbaycanda aparılan həm hüquqi qanunvericilik, habelə, biznes mühitinin əlverişliliyinin daha da yaxşılaşdırılması istiqamətində islahatlar məxsusi olaraq qeyd edilib. Bu, ilk növbədə, beynəlxalq reytinq agentliklərinin Azərbaycanda aparılan islahatlara xüsusi diqqət yetirdiklərini və izlədiklərini göstərir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan davamlı iqtisadi islahatların məntiqi nəticəsi olaraq Azərbaycan 8 pillə irəliləməklə yanaşı, Avropa və Mərkəzi Asiya regionu üzrə ən islahatçı 3 ölkədən biri kimi müəyyənləşib. "Doing Business 2018" hesabatında Azərbaycanın mövqeyi 10 indikatordan aşağıdakı altı indikator üzrə yaxşılaşıb: elektrik enerjisinin əldə edilməsi (3 pillə), əmlakın qeydiyyata alınması (1 pillə), kiçik investorların hüquqlarının qorunması (22 pillə irəliləyərək 10-cu yer), vergilərin ödənilməsi (5 pillə irəliləyərək 35-ci yer), müqavilələrin icrası (6 pillə irəliləyərək 38-ci yer) və müflisləşmənin həlli (39 pillə irəliləyərək 47-ci yer). Beləliklə, Azərbaycanın ən böyük irəliləyişi müflisləşmənin həll edilməsi və kiçik investorların hüquqlarının qorunması kateqoriyaları üzrə əldə edilib.

Məlumat üçün bildirək ki, ölkədə kiçik investorların hüquqlarının qorunması istiqamətində mülki, inzibati və cinayət məcəllələrində dəyişikliklər edilib, sözügedən investorların hüquqlarının qorunması ilə bağlı bir sıra müddəalar əlavə olunub. Müqavilələrin icrası ilə bağlı sahibkarların məhkəmələrə elektron formada rüsum ödəyə bilməsi üçün müvafiq elektron ödəniş sistemi yaradılıb. Sahibkarların maliyyə resurslarına əlçatarlığını təmin etmək istiqamətində aparılan islahatlar çərçivəsində 2016-cı il 28 oktyabr tarixli "Kredit büroları haqqında" və 2017-ci il 2 may tarixli "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının qanunları qəbul edilib. Verginin ödənilməsi istiqamətində 2016-cı il 16 dekabr tarixli "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" qanunu təsdiq edilib.

Təbii ki, Azərbaycanda aparılan islahatlar həm sahibkarların fəaliyyətinə müsbət mənada təsir edib, həmçinin, beynəlxalq indekslərdə mövqeyimizi gücləndirib. Bu isə, yerli investorların biznes fəaliyyətinin stimullaşdırılması, həmçinin xarici investorların ölkəmizə kapital qoyuluşu istiqamətində atılan addımlara müsbət təsir göstərəcək.

Azərbaycanın mövqeyinin dünyanın ən mötəbər reytinqlərdə irəliləməsi, bilavasitə Prezident İlham Əliyev tərəfindən aparılan kompleks iqtisadi islahatlar siyasətinə beynəlxalq ictimaiyyət tərəfindən verilən yüksək qiymətdir. İlk növbədə, burada "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Prezidentinin 13 iyul 2016-cı il tarixli Sərəncamının nəticəsində bir sıra istiqamətlər üzrə mövcud vəziyyətin yaxşılaşdırılması və zəruri islahatların aparılması sahəsində nailiyyətlər əldə edilib. Bundan əlavə, "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanının tətbiqi nəticəsində bir neçə sahədə müsbət tendensiyalar nümayiş edilir.

Xatırladaq ki, bu il Dünya İqtisadi Forumu tərəfindən nəşr olunan "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda da Azərbaycan iki pillə irəliləyərək 35-ci yerdə qərarlaşmışdı. Həmin hesabatda da Azərbaycanın irəliləməsində əsas rolu Prezident İlham Əliyevin rəhbərliyi ilə biznes mühiti üzrə aparılan uğurlu iqtisadi islahatlar oynayıb. Faktiki olaraq, dünyanın iki ən nüfuzlu iqtisadi yönümlü hesabatında Azərbaycanın inamla irəliləməsi ölkəmizdə aparılan davamlı və sistemli islahatların uğuruna dünya ictimaiyyətinin verdiyi yüksək qiymətdir.

Bir sözlə, Prezident İlham Əliyevin praqmatik və uzaqgörən siyasəti ilə Azərbaycanda qurulan yeni iqtisadi model uğurlu nəticələrini verməkdədir. Artıq ölkə iqtisadiyyatı aşağı neft gəlirlərinə tam adaptasiya olunmaqla yanaşı, inkişaf edir və rəqabət qabiliyyətini artırır. Qabaqcıl texnologiyaların bütün sahələrdə tətbiqi, istehsal və investisiyayönümlü innovativ layihələrə dövlət dəstəyi, o cümlədən, güzəştli maliyyə təminatı respublikamızda təşəkkül tapmaqda olan startapların inkişafına və iqtisadiyyatın dinamik yüksəlişinə xidmət göstərir. Ölkədə strateji idarəetmə mexanizmi işləyir və islahatlar dönməz və kompleks xarakter daşıyır. 2018-ci ildən başlayaraq iqtisadi artım daha yüksək tempə malik olacaq. Aparılan islahatlar və yaradılan infrastrukturun hesabına ölkənin regional və qlobal dəyər zəncirlərində mövqeləri güclənəcək. Prezident İlham Əliyevin çevik və praqmatik iqtisadi siyasəti ilə yeni inkişaf mərhələsinin başlanğıcında olan Azərbaycan gələn ildə də özünün sürətli inkişafını təmin edəcək.

***"Səs" Analitik Qrupu***

# Yeni nəşrlər

## *"Qəzənfər Məhəmməd oğlu Paşayev" biblioqrafiyası nəşr edilmişdir*

M.F.Axundov adına Azərbayca Milli Kitabxanası 2006-cı ildən başlayaraq, "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından nəfis şəkildə fundamental biblioqrafiyalar hazırlayaraq çap edir. Bu vaxta kimi həmin seriyadan onlarla belə göstərici, o cümlədən "Üzeyir Hacıbəyli", "Qara Qarayev", "Fikrət Əmirov","Aşıq Ələsgər", "Səməd Vurğun","Mir Cəlal","Müslüm Maqomayev", "Səttar Bəhlulzadə","Tahir Salahov","Cahangir Cahangirov", "Rəşid Behbudov","Mirzə Fətəli Axundzadə", "Əziz Əliyev", "Xəlil Rza Ulutürk", "Niyazi","Bəxtiyar Vahabzadə","İlyas Əfəndiyev", "Elçin", "Teymur Elçin", "Hidayət" və başqaları tərtib edilərək işıq üzü görmüşdür. Növbəti biblioqrafiya tanınmış ədəbiyyatşünas-alim, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayevin 80 illik yubileyinə həsr edilmiş "Qəzənfər Məhəmməd oğlu Paşayev" göstəricisidir. Azərbaycan və rus dillərində çap olunan göstəricidə professorun həyat və yaradıcılığının, ictimai-siyasi fəaliyyətinin 1966-2017-ci illəri öz əksini tapmışdır. Qeyd edək ki, folklorşünas-alim Q.Paşayev haqqında ilk biblioqrafiya (Qəzənfər Paşayev. Biblioqrafiya.- Bakı: Təhsil. 2003.- 247 s.) AMEA-nın Mərkəzi-Elmi Kitabxanası tərəfindən tərtib edilmişdir. Milli Kitabxananın hazırladığı göstərici, həmin vəsaitdən istifadə etməklə, daha da təkmilləşdirilmiş, istifadəçinin axtarışlarını asanlaşdırmaq məqsədilə yeni bolmələr yaradılmış, son beş ilin materialları əlavə edilmişdir.

"Qəzənfər Məhəmməd oğlu Paşayev" biblioqrafiyasına, onun Azərbaycan, ingilis, rus, türk və ərəb dillərində çap olunmuş monoqrafiya və kitabları, tərcümə əsərləri, elmi simpozium, sessiya və konfrans materiallarında və dövrü mətbuatda dərc edilmiş elmi və publisistik məqalələri, habelə, professorun rəhbəri və rəsmi opponenti olduğu namizədlik və doktorluq dissertasiyaları, rəy verdiyi digər elmi əsərləri daxil edilmişdir.




Vəsaitdə yer alan materiallar müxtəlif bölmələr üzrə, daxildə isə xronoloji ardıcıllıqla əlifba sırasına uyğun olaraq yerləşdirilmişdir. Göstəricidə alimin həyat və elmi fəaliyyətinə dair oçerklər, elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas tarixləri öz əksini tapmışdır.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin "Ziyalı fədakarlığına görə örnək", xalq şairi Sabir Rüstəmxanlının "Milli qeyrət" oçerki və Əbdüllətif Bəndəroğlunun "Şah əsər" məqaləlləri Qəzənfər Paşayevin Azərbaycan elminin inkişafındakı böyük xidmətlərinə işıq salır.

Bibliorafiyanın "Görkəmli şəxsiyyətlər Qəzənfər Paşayev haqqında" bölməsində Azərbaycan və xarici ölkə alimlərinin, elm adamlarının və görkəmli şəxsiyyətlərin folklorşünas haqqında fikirləri verilmişdir. Vəsaitdən istifadəni asanlaşdırmaq məqsədilə sonda köməkçi aparat - alimin əsərlərinin və onun haqqında yazan müəlliflərin əlifba göstəricisi tərtib edilmişdir.

317 səhifəlik "Qəzənfər Məhəmməd oğlu Paşayev" biblioqrafiyasını tərtib edənlər Mədinə Vəliyeva və Mətanət İbrahimova, elmi redaktoru əməkdar mədəniyyət işçisi, professor Kərim Tahirov, redaktoru əməkdar mədəniyyət işçisi Gülbəniz Səfərəliyevadır.

Milli Kitabxanada alimin biblioqrafiyasının təqdimat mərasimi keçirilmişdir.Çıxış edən ziyalılar dilçi, ədəbiyyatşünas-folklorşünas alim Qəzənfər Paşayevin Azərbaycan elminə verdiyi töhfələrdən danışmışlar. Qeyd etmişlər ki, professor Q. Paşayev dünyanın bir sıra ölkələrində, o cümlədən, İraqda, Kərkükdə, Dəclə-Fərat sahillərində, Bağdadda olmuş, həmin yerlərin ədəbiyyatı, folkloru, mədəniyyəti ilə yaxından tanış olmuş və ölkəmizə qayıdandan sonra maraqlı məqalələrlə çıxışlar etmiş, sonralar bütün bunlar kitab formasında oxucuların ixtiyarına verilmişdir. O, Qərb və Şərq ziyalılarına məxsus xüsusiyyətləri özündə birləşdirən alimlərimizdəndir. Bu mənada, ədəbi, ictimai-siyasi fəaliyyəti ilə milli elmimizi zənginləşdirən Q. Paşayev haqqında biblioqrafiyanın tərtib edilməsi təqdirəlayiq hal kimi dəyərləndirilməlidir. Kitab ədəbiyyatşünasalimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

***Ədilə Qocayeva, AJB-nin üzvü***

# İtaliya mətbuatı Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin yeni terminalının açılışından yazır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə yanvarın 9-da Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksində Ro-Ro terminalının açılışı İtaliya mətbuatında geniş işıqlandırılıb. AZƏRTAC xəbər verir ki, İtaliyanın "Trend Online", "Milano Finanza", "Oggi Treviso", "Treviso Today", "Fta Online", "İrepi", "Agenzia Nova" və digər kütləvi informasiya vasitələri tərəfindən yayılmış məqalələrdə yeni terminalın əhəmiyyəti, yük qəbul etmə qabiliyyəti və texniki göstəriciləri haqqında məlumat verilir. Həmçinin terminalda logistik əməliyyatların idarə edilməsində İtaliyanın "DBA Group" şirkətinin iştirakından bəhs edilir.


TREVISOTODAY Sezioni Aziende ACCEDI

Aziende / Villorba

Una nuova vita per il porto di Baku grazie alla piattaforma della trevigiana Dba Group

Il nuovo terminal composto da due attracchi sarà in grado di gestire due milioni di tonnellate di merci o 60.000 camion all'anno. La piattaforma Port-Line favorirà le attività logistiche

Redazione
09 GENNAIO 2018 18:29

14 Condivisioni

I più letti di oggi

1 Nuovo consiglio direttivo per Onav Treviso: Buso in carica fino al 2020

Scopri di più

CON LO SCONTO INIZIALE

VILLORBA DBA Group S.p.A., società italiana di consulenza tecnologica, specializzata nella connettività delle reti e nelle soluzioni a supporto del ciclo di vita delle infrastrutture annuncia l'avvio ufficiale dell'utilizzo della piattaforma port-line per la gestione delle operazioni logistiche portuali nel nuovo porto di

Məqalələrdə yeni terminalın ildə 2 milyon ton yük və ya 60 min yük maşını qəbul etmək imkanına malik olduğu bildirilir. Qeyd olunur ki, terminalda bütün logistik əməliyyatların idarə edilməsi "DBA Group" tərəfindən yaradılmış Port-Line proqram təminatı vasitəsilə həyata keçirilir və Port-Line Bakı Beynəlxalq Dəniz Ticarət Limanında tranzit yüklərin maneəsiz daşınmasının asanlaşdırılması məqsədilə prosesin tam avtomatlaşdırılmasını nəzərdə tutur. Yazılarda, həmçinin Bakı Beynəlxalq Dəniz Ticarət Limanında tikilməkdə olan yeni sərnişin terminalının əhəmiyyətindən söz açılır. Bildirilir ki, terminalın Xəzər dənizində yerləşən limanlardan gələn və həmin limanlara qayıdan bütün sərnişin və yüklərin daşınmasına xidmət etməsi nəzərdə tutulur.

Məqalələrdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının azad ticarət zonası olduğu və bununla istehsalçılar üçün İpək Yolu boyunca müasir təchizat zəncirinin mərkəzi rolunu oynayacağı bildirilir. Limanda tətbiq olunan müasir sistem sayəsində Avrasiya ölkələrini vahid "logistik pəncərə" vasitəsilə birləşdirməyin mümkün olacağı, o cümlədən yüksək dəyərə malik yeni xidmətlərin yaradılacağı, onların da öz növbəsində yeni bazarlar yaradacağı qeyd olunur. Limanın ikinci fazasının tam inşasından sonra isə illik yük qəbuletmə qabiliyyətinin 25 milyon tona çatacağı vurğulanır.

# Sahil Babayev: "Hədəfimiz bu il Azərbaycan iqtisadiyyatına 15 milyard dollar investisiyanın cəlb edilməsidir"

***Hədəfimiz bu il Azərbaycan iqtisadiyyatına 15 milyard dollar investisiyanın cəlb edilməsidir. AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat nazirinin müavini Sahil Babayev deyib.***



Nazir müavini qeyd edib ki, qlobal maliyyə çətinliyi dövründə investisiyalar hər zaman siyasi, təhlükəsizlik və iqtisadi baxımından stabil ölkələrə üz tutur. Bu çərçivədə Azərbaycanın 2017-ci ildə 15 milyard dollaradək investisiya cəlb etməsi böyük göstəricidir. Bu, həm ölkəmizin iqtisadiyyatına, Azərbaycan dövlətinin sabitliyinə olan güvəndir. Bunun çərçivəsində həm neft, həm də qeyrineft sahələrinə investisiyalar yatırılıb. Hədəfimiz bu il də bu dinamikanı qorumaq, Azərbaycan iqtisadiyyatına daha 15 milyard dollar investisiyanın cəlb edilməsidir. Bu sahədə kompleks işlər görülür. İnvestisiya mühiti yaradılır, biznes mühiti daha da təkmilləşdirilir. Ölkəmizdə həyata keçirilən islahatlar nəticəsində investisiya təşviqi mexanizminin tətbiqinə başlanılıb. Kənd təsərrüfatında geniş dəstək tədbirləri həyata keçirilib, sənaye məhəlləri, sənaye parkları yaradılıb. Bütün yaradılmış bu mexanizmlər imkan verir ki, Azərbaycanın investisiya mühitinə inam davam etsin və ölkəyə investisiyaların axını daha da genişlənsin. Azərbaycanın neft-sektorunda aktiv ölkələr var. Böyük Britaniya, Türkiyə, Fransa neft sektorunda kifayət qədər aktiv ölkələrdir. Artıq Körfəz ölkələri, Avropa ölkələri Azərbaycana investisiya yatırmağa başlayıb.

"Beynəlxalq reytinq agentlikləri, beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın biznes mühitinə çox yüksək reytinqlər verilir. Bu, əminlik yaradır ki, bu il də Azərbaycan həm xarici, həm daxili investisiyalar üçün əsas mərkəzlərdən biri olacaq", - deyə Sahil Babayev diqqətə çatdırıb.

# Luca Schieppati: "TAP İtaliyanın və bütün Avropanın enerji təhlükəsizliyini gücləndirəcək"




Azərbaycan təbii qazının Avropaya nəqlini nəzərdə tutan "Trans-Adriatik" (TAP) qaz boru kəməri layihəsi İtaliyanın və bütövlükdə Avropanın enerji təhlükəsizliyini gücləndirəcək. AZƏRTAC xəbər verir ki, bu barədə TAP-ın icraçı direktoru Luca Schieppati deyib. O bildirib ki, TAP İtaliya üçün yeni bir təbii qaz təchizat mənbəyi olacaq. İtaliyanın 35 milyard kubmetr qaz tədarükünə dair müqavilələrin müddətinin 2020-ci ilə qədər bitəcəyi nəzərə alındıqda Azərbaycan təbii qazının bu ölkəyə nəqli İtaliyanın enerji təhlükəsizliyini gücləndirəcək. TAP qaz boru kəməri, eyni zamanda, İtaliyanın dekarbonlaşma məqsədlərinə nail olmasına yardımçı olacaq.

L.Schieppati TAP layihəsinin Yunanıstan, Albaniya və İtaliyadakı icra vəziyyəti barədə də danışıb: "Yunanıstanda 473 kilometr, Albaniyada 162 kilometr boru marşrut xətti boyunca düzülüb. Bundan əlavə, TAP marşrutu üzrə Yunanıstanda 457 kilometr, Albaniyada isə 156 kilometr boru qaynaq edilib. İtaliyaya gəldikdə isə bu ölkədə mikro-tunelin üçün tikinti sahəsinin hazırlanması artıq başa çatıb.

# ABŞ Dövlət Departamentinin Azərbaycana münasibəti ədalətsizdir



***ABŞ Dövlət Departamenti amerikalı turistlərin xarici ölkələrə səfərləri zamanı təhlükəsizlik riskləri haqqında məlumatlandırılması üçün yeni sistem işə salıb. Dövlət Departamenti rəsmi saytında yerləşdirdiyi tövsiyə xarakterli məlumatında vətəndaşlarını terrorizm təhlükəsi ilə əlaqədar Azərbaycana səyahətdə diqqətli olmağa çağırıb və bəzi sahələrdə risklərin artdığı qeyd olunub. Terrorçu qrupların Azərbaycanda mümkün hücumları planlaşdıra biləcəyini, turizm məkanlarını, nəqliyyatı, ticarət mərkəzlərini, yerli hökumət obyektlərini, restoranları, ibadət yerlərini, mədəni tədbirləri, aeroportları və s. ictimai yerləri hədəfə ala biləcəyini bəyan edən Dövlət Departamenti, həmçinin, vətəndaşlarına Dağlıq Qarabağa səfər etməməyi və münaqişə ərazisində ABŞ-ın vətəndaşlarının təhlükəsizliyini qoruya bilməyəcəyi barədə məlumat verib. Münaqişə ilə əlaqədar olaraq, vətəndaşlarına Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə səfərə getməməyi tövsiyə edən Departament öz tövsiyəsində vurğulayır ki, Dağlıq Qarabağ münaqişəsi nəticəsində, insan tələfatı davam edir.***

### ABŞ Dövlət Departamentinin son məlumatı təəccüblə qarşılanıb və bu, təhrifdir

Azərbaycan Xarici İşlər Nazirliyi ABŞ Dövlət Departamentinin Azərbaycanla bağlı son məlumatını "təəccüblə qarşılayıb" və terrorizmin bütün forma və təzahürlərini Azərbaycanın kəskin şəkildə qınadığını və pislədiyini bildirib. Nəzərə alsaq ki, son illər Azərbaycana turist axını 24 faiz artıb, ölkəmizə gələn əcnəbi vətəndaşların sayı 2,7 milyon nəfəri ötüb və hələ bir dəfə də olsa, nəinki terror, heç terrorun təhlükəsi ilə belə qarşılaşma müşahidə olunmayıb. Bu baxımdan Departamentin bu siyahısı təkzibdən və təhrifdən başqa bir şey deyil. Azərbaycanın I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, "Formula-1" yarışları, mədəniyyətlər və dinlərarası dialoq forumları, digər yüksək səviyyəli siyasi, iqtisadi, idman və mədəniyyət xarakterli mötəbər tədbirlərə, o cümlədən, ABŞ və Rusiya Baş qərargah rəislərinin, NATO hərbi komitəsinin rəhbərinin və Rusiya Baş qərargah rəisinin görüşləri kimi tədbirlərə ev sahibi etdiyi halda, ABŞ Dövlət Departamentinin belə bir açıqlaması çox təəccüb doğurur.

Maraqlıdır, Azərbaycanın ərazilərini işğal edən dövlət, yəni Ermənistan təhlükəli bir xarakterdə təqdim olunmur, başqa bir qrupa, kateqoriyaya layiq görülmür, amma işğala məruz qoyulan Azərbaycan təhlükə qrupuna daxil edilir. Etinasızlıq, ədalətsiz və ikili yanaşma yenə də özünü göstərir. Çünki Sarkisyan rejimi kimi işğalçı və separatçılardan ibarət qruplaşmanın idarə etdiyi Ermənistan turizm üçün təhlükəli sayılmır, amma çoxsaylı beynəlxalq siyasi, iqtisadi və idman tədbirləri keçirilən Azərbaycan terror təhlükəsi olan ölkə kimi qələmə verilir. Əgər hansısa bir idmançının, tədbir iştirakçısının, qonağın, yaxud turistin bu vaxta kimi zərrə qədər təcavüzə məruz qalmadığı bir ölkənin təhlükəlilik dərəcəsini 1-dən 2-yə qaldırırsa ABŞ Dövlət Departamenti Azərbaycana çox haqsız münasibət göstərir.

### Azərbaycan, hətta regional təhlükəsizliyin də qarantına çevrilib

Qlobal layihələrə ardıcıl şəkildə imza atan Azərbaycan təkcə öz ölkəsi daxilində deyil, həmçinin, regional təhlükəsizliyin də qarantına çevrilib. Bölgədə təhlükəsizliyin təminatçısı, iqtisadi bağlılıq yaradan Azərbaycan Qafqazın lider dövləti və nüfuzlu ölkəsi kimi təhlükəsizliyi daim nəzarətdə saxlayır. Eyni zamanda, enerji və nəqliyyat sahəsində imza atılan layihələr bölgədə hər bir ölkənin maraqlarını təmin etməklə yanaşı, həmin ölkələrin özlərini də təhlükəsizliyin qorunmasında maraqlı edir.

Ermənistan, bölgədə küncə qısılmış və marginallaşmış bir durumda olması səbəbindən, ən çox terror təhlükəsi gözlənilən ölkə hesab olunmalıdır. Amma nədənsə, yenə də Azərbaycan qabarıq şəkildə təzahür edən ikili standartların bu siyahısında yer almalı olur. Halbuki ölkəmiz təhlükəsizlik baxımından da, nəinki region ölkələri, hətta bütün dünya dövlətləri üçün örnək hesab oluna bilər.

Hamıya bəllidir ki, qlobal layihələr gələcəkdə iqtisadi səmərəlilik baxımından da, öz töhfəsini verəcək və Azərbaycanın bu tip layihələrdən nəzərəçarpacaq dərəcədə yüksək gəlirlər əldə edəcəyi inkar edilə bilməz. Belə ki, nəqliyyat dəhlizlərinin açılışı turist axınına öz müsbət təsirini göstərəcəyi danıla bilməz. Belə dəhlizlər ölkəmizdə turizmin inkişafına da öz müsbət təsirini göstərəcəyi günün reallığıdır. Həmçinin, nəinki turizm, belə infrastriktur layihələri investisiya axınına və əcnəbi iş adadlarının Azərbaycana sərmayə cəlb etməsinə də öz töhfəsini artıq verməkdədir.

### Ədalətsiz münasibət və yenə də ikili standartların tətbiqini müşahidə edirik

Azərbaycana qarşı ədalətsiz münasibət və ikili standartların tətbiqini müşahidə edirik. Yenə də xristian həmrəyliyinin lobbiçiliyin təzahürünün şahidi oluruq. Azərbaycanın uğurlarına sevinməyən, əksinə, çox məyus olan qüvvələrin fəaliyyətini və bu fəaliyyətin təsirini inkar etmək olmaz.

Məsələ burasıdır ki, ABŞ Dövlət Departamenti Azərbaycanın təhlükəlilik dərəcəsini 1-dən 2-yə qaldırmaqla erməni lobbisinin, anti-Azərbaycan qüvvələrin sifarişlərini reallaşdırmağa cəhd edir. Bu taktika istər turizm biznesinə, istərsə də investisiya cəlb edilməsinə maneçilik törədilməsinə hesablanıb. Əslində, bu fakt özü-özlüyündə Azərbaycanın, nəinki erməni lobbisi, hətta Qərb üzərində qələbəsindən, möhkəmlənmiş mövqeyidən xəbər verir. Ondan xəbər verir ki, ölkəmizin istər turizm, istərsə də investisiya yatırımları istiqamətində perspektivləri qəbul olunur və bu perspektivlər düşmənləri çox qıcıqlandırır və narahat edir. Aqressiv münasibət sərgiləyən qüvvələr, lobbilər və onların əlində oyuncağa çevrilmiş beynəlxalq təşkilatlar, nüfuzlu dövlətlər Azərbaycanın iqtisadi inkişafına və gələcək perspektivlərinə, ümumilikdə, tərəqqisinə əngəl olmağa çalışır. Ölkəmizin inkişafına, uğur və nailiyyətlərinə əngəl olmaq cəhdləri bu vaxta qədər nəticəsiz qalmış və belə ədalətsiz münasibət, həmçinin, ikili standartlarla Azərbaycanın nüfuzuna xələl gətirmək və iqtisadi inkişafına mane olmaq qeyri-mümkündür.

***İnam HACIYEV***

## Türkiyənin cavab addımı: ABŞ-a səfərlərdən çəkinin



Türkiyə Xarici İşlər Nazirliyi ABŞ tərəfinin analoji addımına cavab olaraq, təhlükəsizlik səbəbindən öz vətəndaşlarına Birləşmiş Ştatlara səfərlərindən çəkinmək barədə xəbərdarlıq edib. AZƏRTAC bu barədə Anadolu informasiya agentliyinə istinadla xəbər verir. "ABŞ-da terror aktlarının və zorakılığın artması, həmçinin vətəndaşlarımızın əsassız şəkildə həbs edilməsi və hökumətin onlara qarşı qanunsuz fəaliyyətləri müşahidə olunur. Bununla bağlı vətəndaşlarımıza ABŞ-a səfərləri barədə bir daha düşünmək və təxirəsalınmaz səfərlər zamanı onlara diqqətli olmaq barədə xəbərdarlıq edirik", - XİN-in bəyanatında belə deyilir.

Bir gün əvvəl ABŞ Dövlət Departamenti terror təhlükəsi və səbəbsiz həbslərlə bağlı amerikalılara imkanları daxilində Türkiyəyə səfərlərdən çəkindirib və bu ölkəni Pakistan, Qvatemala və Sudanla birlikdə "yüksək təhlükə səviyyəsi" olan ölkələr qrupuna daxil edib. Bundan sonra ABŞ-ın Türkiyədəki müvəqqəti işlər vəkili Filip Kosnet Xarici İşlər Nazirliyinə çağırılıb və ona Ankaranın etirazı çatdırılıb.

## "Ötən il ixracatçılara 2,9 milyon manat məbləğində ixrac dəstəyi ödənilib"

İxrac təşviqi sahəsində ötən il uğurlu il oldu. Azərbaycan hökuməti tərəfindən ixracatçılara 2,9 milyon manat məbləğində ixrac dəstəyi ödənilib. AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat nazirinin müavini Sahil Babayev jurnalistlərə müsahibəsində bildirib. "Azərbaycan ixracatçısı xarici bazarlara öz mallarını ixrac etdikdən sonra bu valyutanı ölkəyə gətirərək Azərbaycan dövlətinin dəstəyini əldə edir və müxtəlif mallardan asılı olaraq 3 faizdən 6 faizə qədər bu dəstək Azərbaycan hökuməti tərəfindən ixracatçılara göstərilir", - deyə nazir müavini bildirib.

## Yanvarın 12-dək ölkə üzrə 207 min 329 ton pambıq tədarük olunub

Yanvarın 12-dək ölkə üzrə 207 min 329 ton pambıq tədarük olunub. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, ötən gün pambıq qəbulu məntəqələrinə 49 ton məhsul təhvil verilib. Hazırda qeyri-neft sektorunun inkişafına yönəlmiş kompleks tədbirlər nəticəsində ənənəvi kənd təsərrüfatı sahələrində, o cümlədən pambıqçılıqda böyük artım müşahidə olunur. Ötən mövsümdə qəbul məntəqələrinə 89 min ton, bu mövsümdə isə 207 min tondan çox pambıq təhvil verilib.

# “Made in Azerbaijan” loqosu təqdim olunub

*“Made in Azerbaijan” loqosu təqdim olunub.AZƏRTAC xəbər verir ki, yanvarın 12-də İxracatçılar Klubunun 2018-ci ildə ilk iclası çərçivəsində “Made in Azerbaijan” loqosunun təqdimatı olub.*







Loqonu “Leo Burnett” şirkəti hazırlayıb. Şirkətin nümayəndəsi Abbas Fətullayev loqonun strategiyası, başqa ölkələrin bu sahədə təcrübəsi barədə məlumat verib. Bildirib ki, “Made in Azerbaijan” loqosu Azərbaycanın zəngin təbiətini və təbii sərvətlərini, müasirliyini, ölkəmizin yüksək mədəni səviyyəsini, eyni zamanda, xalq sənətkarlığının atributlarını özündə əks etdirir.

İqtisadiyyat nazirinin müavini Sahil Babayev İxracatçılar Klubunun Azərbaycan məhsullarının xarici bazarlara ixrac edilməsində istehsalçılara dəstək göstərmək məqsədilə yaradıldığını qeyd edib, qeyri-neft ixracının coğrafiyasının genişləndirilməsi, ənənəvi bazarlarda Azərbaycan məhsullarının mövqelərinin daha da gücləndirilməsi, “Made in Azerbaijan” brendinin dünyada tanıdılması istiqamətində görülən işlər barədə məlumat verib, bu istiqamətdə dəstək mexanizmlərinin uğurla həyata keçirildiyini deyib. Bildirilib ki, 2017-ci il ərzində 10 ölkəyə 10 ixrac missiyası təşkil edilib. Bu ixrac missiyalarında 160-dan çox şirkət iştirak edib. Bundan başqa, müxtəlif xarici ölkələrdə 251-ə yaxın görüş keçirilib, 11 ölkə ilə əməkdaşlığa dair müqavilələr imzalanıb.

“2017-ci ildə qeyri-neft ixracı 24 faiz, o cümlədən kənd təsərrüfat məhsullarının ixracı 28 faiz, sənaye məhsullarının ixracı 21 faiz, xarici ticarət fəaliyyəti ilə məşğul olan sahibkarlıq subyektlərin sayı 7 faiz artıb. Ötən il Azərbaycan 3100 çeşiddə məhsul ixrac edib. 2017-ci ildə 160-dan çox şirkətə ixrac üzrə fərdi qaydada xidmətlər göstərilib, 44 sahibkarlıq subyektinə 2,8 milyon manat ixrac təşviqi ödənilib”, - deyə nazir müavini qeyd edib.

Diqqətə çatdırılıb ki, bundan başqa, “Buta Airways” təyyarələrində reklam yerləşdirilib, təyyarələrdə təklif olunan Azərbaycan məhsullarının siyahısı genişləndirilib. “SOCAR Georgia Petroleum” şirkətinin yanacaqdoldurma məntəqələri üçün 10 stend hazırlanıb və yanvar ayının sonunadək məntəqələrdə yerləşdiriləcək. Rəqabətqabiliyyətli və ixracyönümlü yerli məhsulların “Made in Azerbaijan” brendi altında təşviqi yerli şirkətlərin daxili və xarici bazarlarda mövqelərinin möhkəmləndirilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Milli brendlərimizin yaradılması və inkişafı, daha geniş coğrafiyada tanıdılması istiqamətində tədbirlər görülür. Bu məqsədlə həyata keçirilən tədbirlərdən biri də “Made in Azerbaijan” loqosunun hazırlanaraq Patent və Əmtəə Nişanları Mərkəzində qeydiyyata alınmasıdır.

“Patent və Əmtəə Nişanları Mərkəzi” publik hüquqi şəxsin baş direktoru Günel Sevdimalıyeva sahibkarlara məxsus brendlərin və patent hüquqlarının xarici ölkələrdə qorunmasının iqtisadi və texniki əhəmiyyəti barədə məlumat verib, “Made in Azerbaijan” loqosunun patentləşdirilməsinin zərurətini diqqətə çatdırıb.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbəri Rüfət Məmmədov “Made in Azerbaijan” brendinin təşviqi istiqamətində 2017-ci ildə görülmüş işlər və 2018-ci ildə bu sahədə reallaşdırılacaq tədbirlərdən danışıb. Sonda sahibkarları maraqlandıran suallar cavablandırılıb. Tədbirdə rəsmi şəxslərlə yanaşı, iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən 100-ə yaxın iş adamı iştirak edib.

## Tramp: “Murdar” ölkələrdən olan immiqrantlar ABŞ-a lazım deyil

ABŞ KİV-lərində yayılan məlumata görə, Prezident Donald Tramp Demokratlar Partiyasından və Respublikaçılar Partiyasından olan konqresmenlərlə görüşündə deyib ki, ABŞ Haitidən və “murdar” Afrika ölkələrindən olan immiqrantları deyil, Norveç kimi ölkələrdən olan immiqrantları qəbul etməlidir. Qanunvericilər yüz minlərlə gənc immiqrantı deportasiyadan qorumaq, həmçinin ABŞ sərhədlərinin müdafiəsini gücləndirmək məqsədilə iki partiya arasında kompromisin təfsilatını prezidentə bildirmək üçün onunla görüşüblər.

Hələ bir neçə ay bundan əvvəl Tramp Haitidən olan immiqrantların ünvanına təhqiramiz sözlər işlədərək, deyib ki, Haitidən olan bütün insanlar QİÇS xəstəliyinə tutulublar. Yuta ştatından olan respublikaçı konqresmen, valideynləri 1970-ci illərdə Haitidən mühacirət etmiş Mia Lav Donald Trampı bu sözlərinə görə üzr istəməyə çağırıb.

## Azərbaycanda körpə və uşaq ölümləri son 25-30 ildə üç dəfəyədək azalıb

Azərbaycanda körpə və uşaq ölümlərinin göstəricisi son 25-30 ildə üç dəfəyədək azalıb. Bununla belə, ölkə səhiyyəsi qarşısında duran əsas məqsəd uşaq ölümlərini yaradan səbəbləri azaldaraq birrəqəmli səviyyəyə gətirmək və bu göstəriciləri dünyanın ən inkişaf etmiş ölkələrinin sırasına çatdırmaqdan ibarətdir. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin baş pediatrı Nəsib Quliyev Gəncə şəhər Səhiyyə İdarəsində keçirilən “Azərbaycan Respublikasında uşaq ölümünün azaldılmasına yönəldilmiş Tədbirlər Planı”na həsr edilmiş regional müşavirədə deyib.

Tədbirdə çıxış edən Kübra Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru, baş pediatr Nəsib Quliyev körpə və uşaq ölümlərinin qarşısının alınması üçün səhiyyə işçilərinin əsas vəzifələrindən danışıb. Qeyd olunub ki, səhiyyə sahəsində xidmət göstərən kadrlar günün tələblərinə uyğun çalışmalı və gələcək nəslin sağlamlığının qorunması məqsədilə mümkün olan bütün dəstəyi göstərməlidir.

## Buraxılış imtahanlarında dəyişiklik olacaqmı?

2017/2018-ci tədris ilində ümumi orta təhsil səviyyəsi üzrə təhsilalanların biliyinin yekun qiymətləndirilməsi (attestasiyası) ötən dərs ilində olduğu kimi, iki mərhələdə keçiriləcək. SİA-nın məlumatına görə, bunu DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə bildirib.



O qeyd edib ki, hazırda IX sinifdə təhsilalanların məzmun standartları üzrə mənimsəmə səviyyələri və bacarıqlarının yoxlanılması yeni qiymətləndirmə vasitələri ilə aparılır.

Fənn kurikulumlarının tətbiqi ilə bağlı olan bütün bu yeniliklər nəzərə alınaraq, 2016/2017-ci tədris ilində ümumi orta təhsil səviyyəsi üzrə təhsilalanların biliyinin yekun qiymətləndirilməsi (attestasiyası) yeni model əsasında həyata keçirilib: “Modelə əsasən buraxılış imtahanı ötən dərs ilində olduğu kimi, iki mərhələdə keçiriləcək. Birinci mərhələdə şagirdlərin oxuyub-anlama və yazı bacarıqlarını yoxlamaq məqsədilə açıq (cavablar müəyyənləşdirilib, yazı ilə ifadə olunur) və qapalı (verilən cavab variantlarından bir doğru cavabın seçilməsi) tipli test tapşırıqlarından, inşalardan (esselərdən), riyazi bacarıqları yoxlamaq məqsədilə açıq tipli, ikinci mərhələdə isə hər bir fənn üzrə qapalı tipli test tapşırıqlarından istifadə ediləcək”.

## Bir neçə cinayət əməli törədən və axtarışda olan şəxs saxlanılıb

Yasamal Rayon Polis İdarəsinin 26-cı polis bölməsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Cinayət Məcəlləsinin 177-ci (oğurluq) maddəsi ilə axtarışda olan Rakim Babalıyev saxlanılaraq istintaqa təhvil verilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, R.Babalıyevin ətrafında aparılan tədbirlərlə onun ötən ilin sentyabrın 15-dən cari il yanvarın 9-dək olan müddətdə Bakı şəhər sakinləri İ.İmanova, R.Mikayılova, R.Məcidova, J.Salahovaya məxsus dörd avtomobildən və bir evdən pul, məişət əşyaları, habelə iki qadının mobil telefonlarını oğurladığı da müəyyənləşib.

***Yanvarın 12-də dahi Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının ilk dəfə nümayiş etdirildiyi gündür. Məlum olduğu kimi, Üzeyir Hacıbəylinin 1908-ci il yanvarın 12-də Bakıda Hacı Zeynalabdin Tağıyev Teatrında göstərilən "Leyli və Məcnun" operası ilə təkcə Azərbaycanda deyil, bütün Şərqdə opera sənətinin əsası qoyuldu. Bu əsərə zaman-zaman müraciət olunmuş, bu gün də opera Azərbaycan milli sənət əsəri olaraq böyük səhnələrdə oynanılır. 1908-ci il yanvarın 12-də, soyuq bir qış axşamında Tağıyev Teatrında Şərqin ilk operası "Leyli və Məcnun" 22 yaşlı Üzeyir bəy Hacıbəyli tərəfindən Azərbaycan xalqına bəxş edilmişdir. Elə bir insan yoxdur ki, bu məhəbbət əfsanəsinə böyük maraq və heyranlıqla tamaşa etməsin.***

# "Leyli və Məcnun"-110

## *Sənət tariximizin ilk operası*





Xalqın professional sənət nümunəsi olan "Leyli və Məcnun"da iştirak etmiş müğənnilər, bu möhtəşəm əsəri müxtəlif quruluşlarda səhnəyə qoymuş rejissorlar, dirijorlar, xormeysterlər, rəssamlar, baletmeysterlər və konsertmeysterlər olmuşdur.

Məcnun rolunun ilk ifaçısı olan Hüseynqulu Sarabskinin adı isə əbədi olaraq tarixə həkk olundu. Məcnunu oynamağa hazırlaşan Hüseynqulu Sarabski tez-tez Üzeyir bəylə görüşür, onun yaradıcılıq göstərişlərinə və məsləhətlərinə diqqətlə qulaq asırdı. Nəhayət, bir çox maneə və çətinliklərdən sonra "Leyli və Məcnun" operası 1908-ci il yanvarın 12-də tamaşaya qoyulur. İlk tamaşanın rejissoru Hüseynqulu Sarabski, ikinci rejissoru Hüseyn Ərəblinski, dirijoru Əbdürrəhim bəy Haqverdiyev idi. Üzeyir bəyin özü orkestrdə skripkada ifa edirdi. Qurban Pirimov isə sədəfli tarı ilə tamaşanı müşayiət edirdi. "Leyli və Məcnun" operasının ilk tamaşası böyük müvəffəqiyyətlə keçmişdi. Ağzına qədər dolu olan salon qarşısında Məcnun rolunu oynayan H.Sarabski və başqa ifaçılar, elə məharət göstərmişdilər ki, tamaşaçılar arasıkəsilməyən alqışlarla onları səhnənin qabağına çağırırmışdılar. Tamaşaçılar bir ağızdan "Məcnun" deyib, H.Sarabskini səhnədən buraxmaq istəmirdilər. İlk tamaşanın suflyoru Ə.Rzayev "Teatr və Ərəblinski" adlı xatirəsində yazır ki, xor "Şəbu-hicran"ı oxuyub qurtarandan sonra pərdə düşəndə, zaldan gurultulu alqış qopdu. Pərdə dübarə qalxanda, Məcnun - H.Sarabski "Mahur-Hindi" muğamı üstündə Məhəmməd Füzulinin "Yandı canın hicr ilə vəcli-ruhi yar istərəm" qəzəlini elə məharətlə oxudu ki, mən suflyor budkasında özümü unutmuşdum.

1908-ci il 15 yanvar tarixli "İrşad" qəzetində tamaşa haqqında dərc olunmuş resenziyada isə Füzulinin "Leyli və Məcnun" poemasının da dillər əzbəri olduğu vurğulanır və həmin əsərin musiqi dili ilə səslənməsi "cavan mühərrir və musiqikar Üzeyir Hacıbəyli və realnı şagirdi Ceyhun Hacıbəyli cənabları ilə yanaşı, "Nicat" Maarif Cəmiyyətinin böyük xidməti olduğu göstərilir.

Tamaşanın özünə gəldikdə isə, "İrşad" qəzeti səhnələrin bir qədər şairanə olmasını tövsiyə edir və ayrı-ayrı aktyorların oyunlarına da münasibət bildirir. "İrşad" Məcnun rolunun ifaçısı "müqtədir artist Sarabski"nin oyununu yüksək qiymətləndirir və onun dəfələrlə alqışlandığını və öz peşəsinə olan məhəbbəti sayəsində müvəffəqiyyət qazandığını göstərir. Leyli rolunun ilk ifaçısı Əbdürrəhim Fərəcov ilk dəfə səhnəyə çıxdığı və "İrşad" qəzetinin qeyd etdiyi kimi, "belə mühüm bir vəzifəni öhdəsinə götürdüyünə görə" tamaşaçıların rəğbətini qazandığını vurğulayır.

Opera gözlənilməz müvəffəqiyyət qazandı. Hüseynqulu Sarabski ömrünün 40 ilini teatr sənətinə həsr etdi. O, bu illər ərzində silsilə rollar yaratmaqla Azərbaycan teatr sənətinin səhnəsini zənginləşdirdi. Opera sənətinin fədailərindən biri olan Hüseynqulu Sarabski təkrarolunmaz məharətlə yaratdığı Məcnun obrazı haqqında daha sonra yazırdı: "Sarabskinin oyunu misilsiz idi. Onun nəğmələri bulaq kimi axır... Ağlaya-ağlaya, inildəyə-inildəyə öz məhəbbətindən, öz Leylisindən Füzulinin qəzəlləri ilə ölməz muğam üstündə danışır, insan qəlbinin ən incə damarlarına işləyən musiqi mənə o qədər təsir edirdi ki, hönkürtümü çətin boğa bilirdim. Lakin göz yaşlarım durmadan axırdı. Qəlbimi isə qəribə hisslər doldururdu. Zavallı, uğursuz, divanə Məcnun! Sarabski öz rolunu böyük məharətlə oynadı. O, Məcnun surətini səhnədə tam mənası ilə canlandırdı". Bu maraqlı və yaddaqalan ifadan sonra Azərbaycan Musiqili Teatrının bütün sonrakı tamaşalarında Şeyx Sənan, Şah Abbas, Söhrab, Kərəm, Aşıq Qərib, Şah İsmayıl, Mərcan bəy, Sərvər və Əsgər kimi baş qəhrəmanların maraqlı obrazlarını yaratdı.

Xüsusilə, onun Məcnun rolu əfsanəyə çevrilmişdi. Şübhəsiz ki, hamı o dövrdə "Leyli və Məcnun" operasına baxmaq imkanına malik deyildi. Xüsusilə, Azərbaycanın uzaq kənd və şəhərlərində yaşayanların Bakıya gəlib operaya tamaşa etmələri müşkül idi. Odur ki, bir çox yerlərdən arasıkəsilmədən məktub və teleqramlar gəlir, hamı "Leyli və Məcnun" tamaşasına baxmaq arzusunda olduğunu bildirir, acizanə surətdə xahiş edirdilər ki, Sarabski Lənkəran, Şəki, Gəncə, Şuşa və Tiflis şəhərlərinə qonaq gəlsin. Məhz buna görə Sarabski 1913-1918-ci illərdə öz sənət dostları ilə "Leyli və Məcnun" tamaşasını göstərmək məqsədi ilə Qafqazın bir çox şəhərlərinə qastrol səfərlərinə çıxmışdı.

Böyük aktyor və nəğməkarın qəlbi ömrünün son dəqiqələrinədək Məcnun obrazı ilə yaşamışdır. 1945-ci il fevralın 16-da ölüm yatağında olarkən, sənət dostları Qurban Pirimov və Leyli rolunun ifaçısı müğənni Həqiqət Rzayevanı yanına çağırmış və gözlərini Qurbana dikərək, titrək səslə demişdir: "Qurban çal, son dəfə Leylini dinləmək istəyirəm". Qurbanın tarını, Həqiqətin səsini eşidən müğənni əbədi olaraq gözlərini yummuşdu.

Xalq Cümhuriyyəti dövründə "Leyli və Məcnun" operasının növbəti tamaşası 1919-cu il noyabrın 21-nə təsadüf edir. Artıq bir aya yaxın idi ki, Bakıda Azərbaycan Dövlət Teatrosu təşkil edilmişdir. 21 noyabr tarixli "Azərbaycan" qəzeti həmin tamaşa haqqında yazaraq, onun, ilk növbədə, zahiri cəhətdən fərqləndiyini, əlbəsəyə, xora, pərdələrə, musiqiyə və baletə artıq əhəmiyyət verildiyinə oxucuların diqqətini çəkir. Qəzet "Leyli və Məcnun" operasının bu tamaşasını dəyərləndirərək, yazır ki, "zahiri gözəlliklə keçən gecəki tamaşa "Leyli və Məcnun" operasının tarixində birinciliyi ehraz edə biləcək bir halda idi".

Mənbələrdə göstərilir ki, Məcnun rolunu oynamaqla məşhurlaşan H.Sarabski xəstə olduğundan, həmin rolda Məmmədtağı Bağırov, Leyli rolunda isə Hüseynağa Hacıbababəyov çıxış etmişlər. Bu iki aktyor sonralar opera sənətimizin inkişafında böyük rol oynamış, istər Azərbaycan bəstəkarlarının və istərsə də rus və Qərbi Avropa bəstəkarlarının operalarında çıxış edərək, Azərbaycan SSR xalq artisti kimi yüksək və şərəfli ada layiq görülmüşlər. Həmin tarixli "Azərbaycan" qəzeti H.Hacıbababəyovun Leyli rolundakı çıxışına, ümumiyyətlə, kişilərin qadın rollarındakı çıxışlarına mənfi münasibət bəsləyərək, Dövlət Teatrosunun rəhbərliyini bu, adətdən, birdəfəlik yaxa qurtarmağa və bu məsələyə ciddi yanaşmağa dəvət edir. Bununla belə, "Azərbaycan" qəzeti H.A.Hacıbababəyovun səsində "eşidənlərin ruhunu təsfir edə biləcək bir qüvvə" olduğunu da vurğulayır. M.T.Bağırovun isə səsinin müqabilində zəif bir Məcnun alındığını, Rza Darablının özünəməxsus bir məharətlə Nofəl rolunda Terequlovu təqlid etdiyini, lakin "istər səs, istər vəziyyət hərəkəti ilə rolunu layiqi ilə oynaya" bildiyini qeyd edir.

Bütün bunlar, bir daha sübut edir ki, dahi Üzeyir bəy Hacıbəylinin böyük fərəh hissi ilə qeyd etdiyimiz "Leyli və Məcnun" operası XX əsrin əvvəllərindəki milli mətbuatımızın diqqət mərkəzində olmuş və bu maraq sonrakı illərdə də səngiməmişdir. Bu sənət əsəri sonralar çox Leylilər və Məcnunlar yetişdirdi. Dünyanın bir çox ölkələrində əsər müvəffəqiyyətlə oynanıldı. Tamaşa uğurları ilə Azərbaycan opera sənətini dünyaya tanıtdı. Bu gün Azərbaycan opera sənətində yetişən Leylilər və Məcnunlar sənət eşqi ilə Məhəmməd Füzuli və Üzeyir Hacıbəyli dünyasının ilhamı olan əsəri canlandırır, hər nəslin nümayəndəsinə onun sehrindən və cazibəsindən lirik-həzin lövhələri təqdim edirlər.

Üzeyir Hacıbəylinin yaradıcılığı elə möhtəşəm qüvvədir ki, Azərbaycan musiqisinin qədim ənənələrini yerindən oynadaraq canlandırmış, xalq musiqi yaradıcılığının tükənməz imkanlarını aşkara çıxarmışdır. 110 il bundan əvvəl yaratdığı "Leyli və Məcnun" operası ilə Azərbaycan professional bəstəkarlıq məktəbinin təməl daşını qoyan Ü.Hacıbəyli hərtərəfli istedadını, biliyini, bacarığını onun inkişafına yönəltmiş və bununla da, Azərbaycan musiqisinin yüksək zirvələr fəth etməsi və dünya miqyasında tanınması üçün zəmin hazırlamışdır. Lakin Azərbaycan musiqisinin əlçatmaz zirvəsi elə Ü.Hacıbəylinin öz yaradıcılığıdır, onun yaratdığı sənət incilərinin hər biri musiqimizin şah əsərləridir desək, yanılmarıq.

***ZÜMRÜD***

# Azərbaycanın peyk şəbəkəsi sosial-iqtisadi inkişafa dəstəkdir



***Bu gün Azərbaycanda qeyri-neft sektorunun inkişafı ilə əlaqədar həyata keçirilən dövlət proqramları, aparılan islahatlar, yeni layihələrin icrası ölkənin inkişafı üçün geniş imkanlar açıb. Bu inkişaf nəticəsində müasirləşən və modernləşən Azərbaycan beynəlxalq aləmdə neft-qaz, turizm, tolerant, idman ölkəsi, eyni zamanda, innovasiyalar, informasiya-kommunikasiya texnologiyaları və kosmik əlaqələndirmələr ölkəsi kimi tanınıb. Azərbaycan Prezidenti Cənab İlham Əliyev bütün sahələrinə olduğu kimi informasiya-kommunikasiya texnologiyaları sahəsinin inkişafına da önəm verir.***

Bu sahənin inkişafına yönəlmiş dövlət proqramları və zəruri islahatlar həyata keçirilir. Azərbaycan Prezidentinin 2005-ci il 22 oktyabr tarixli Fərmanı ilə təsdiq edilən "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)" rabitə və informasiya texnologiyalarının geniş tətbiqinə yeni imkanlar açdı. Dövlət başçısının "Xüsusi iqtisadi zonaların yaradılması haqqında" 2007-ci il 6 mart tarixli Fərman isə İKT sektorunun inkişafına münbit zəmin yaratdı. Həyata keçirilən dövlət siyasətinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu göstərən "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında ölkə başçısının məlum Sərəncamı Milli Strategiyadan irəli gələn vəzifələrin yerinə yetirilməsi respublikanın informasiya cəmiyyətinə keçidinin təmin edilməsi baxımından əhəmiyyətli rol oynadı. Dövlət başçısı tərəfindən Azərbaycanda ən qabaqcıl texnologiyaların tətbiq edilməsi, əhaliyə yüksək keyfiyyətli xidmətlərin göstərilməsi, cəmiyyətdə informasiya texnologiyalarından istifadəyə əlverişli şəraitin yaradılması üçün məqsədyönlü işlər, davamlı olaraq, həyata keçirilir. Bu gün ölkəmizdə İKT sektoru sürətlə inkişaf edir. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması, 2008-ci ildə "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması", 2009-cu ildə ölkədə "Kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" Prezident İlham Əliyevin sərəncamları bu sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin əyani sübutudur. Prezident İlham Əliyev tərəfindən 2010-cu ildə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin təsis edilməsi haqqında Sərəncam imzalandı və həmin quruma telekommunikasiya peykinin istehsalı və orbitə çıxarılması, əsas və ehtiyat Yerüstü Peyk-İdarəetmə Mərkəzinin yaradılması ilə bağlı xüsusi tapşırıq verildi.

### DÜNYANIN MEDİA NƏHƏNGLƏRİ PEYK XİDMƏTLƏRİ ÜZRƏ BİZNES-TƏRƏFDAŞ OLARAQ AZƏRBAYCANI SEÇİR

Azərbaycan, Avropa və Amerika mütəxəssislərinin birgə səylərinin nəticəsi olan, amma Azərbaycan adı ilə ərsəyə gələn, Azərbaycan bayrağının təsviri ilə kosmosa göndərilən "Azərspase-1" telekommunikasiya peykinin orbitə çıxarılması ölkəmizin daha bir nailiyyəti olaraq tarixə düşdü. Azərbaycan tarixinin önəmli layihələrindən biri olan "Azerspace-1" peykinin 2013-cü ildə orbitə çıxarılması, daha sonra "Azersky" da suverenliyimizin qorunması və Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün geniş imkanlara malikdir. 2015-ci ildən etibarən "Azersky" peyki ölkənin müdafiə və təhlükəsizliyi üçün davamlı istifadə edilir, həmçinin, işğal olunmuş ərazilərimizdə törədilmiş yanğınların, mütəmadi olaraq, monitorinqi və dəymiş ziyanın qiymətləndirilməsi aparılır. Dünyanın 25-dən çox ölkəsində sabit müştəri bazasına malik olan "Azerspace-1" peyki üzərindən Azərbaycan, türk, rus, ingilis və digər dillərdə, yerli və beynəlxalq səviyyəli, ümumilikdə, 100-ə yaxın televiziya və radio kanalı yayımlanır. Bu gün Reuters, MTV, National Geographic kimi media nəhəngləri peyk xidmətləri üzrə biznes-tərəfdaş olaraq Azərbaycanı seçir. Bu, Azərbaycanın elmi-texniki və iqtisadi qüdrətinin təntənəsidir. İstismar müddəti 15 il olan "Azərspase-1" peyki Avropa, Afrika, Mərkəzi Asiya, Qafqaz ölkələri və Yaxın Şərq regionunu əhatə edir.

### "AZERSPACE-2"NİN ORBİTƏ ÇIXARILMASI "AZERSPACE-1"İN ORBİTDƏKİ EHTİYATI OLACAQ

Azərbaycanın ilk telekommunikasiya peyki informasiya müstəqilliyin və təhlükəsizliyin təmin edilməsi, ölkəmizdə kosmik sənayesinin inkişaf etdirilməsi ilə yanaşı, kommersiya xarakterli və gəlirli bir layihədir. Azərbaycanın peyk şəbəkəsi ölkəmizin suverenliyinə xidmət etmək və biznes layihəsi olmaqla yanaşı, həm də sosial-iqtisadi inkişafa dəstək verir. Azərbaycan Prezidenti Cənab İlham Əliyev çıxışlarını birində bu peykin fəaliyyətinin iqtisadi cəhətdən səmərəli olacağını vurğulamışdır: "Gələcəkdə bu sahənin hər bir ölkə üçün nə qədər vacib olduğunu, əminəm ki, hər kəs görəcəkdir. Hər bir ölkənin uğurlu və dayanıqlı inkişafı üçün informasiya-kommunikasiya texnologiyaları sahəsi həlledici rol oynayacaqdır. Mən buna əminəm. Mən çox şadam ki, biz bu istiqamətdə bütün işləri planlı və məqsədyönlü şəkildə aparırıq. Bütün addımları atırıq ki, ölkəmiz daha da güclənsin və Azərbaycan daha da müasir dövlətə çevrilsin".

Artıq uğur əldə edilib. Peyk xidmətləri bazarında fəaliyyətdə olduğu dörd il ərzində peyklərin istismarından 90 milyon ABŞ dolları həcmində gəlir əldə edib. 2014-cü ildən "Azərspace-1" peyki vasitəsilə Azərbaycanın bütün televiziya və radio kanalları keyfiyyətli yayıma başlayıb. Həmçinin, tələb və rəqabətin artması, peyk tutumlarının bazar qiymətlərinə uyğun təklif olunması "Azerspace-1" peykinin əhatə etdiyi regionlarla əməkdaşlığı gücləndirməyə, eləcə də, Livan, əfqan və ərəb bazarında fəaliyyət göstərməsinə şərait yaradıb.

***Nəzakət ƏLƏDDİNQIZI***

---

# Yeni nəşrlər

## *"Yusif Vəzir Çəmənzəminli" biblioqrafiyası*

XX əsr Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yeri olan görkəmli alim, yazıçı, ictimai-siyasi xadim Y.V.Çəmənzəminlinin anadan olmasının 130 ili tamam oldu. Bununla bağlı Mədəniyyət Nazirliyinin xətti ilə bir sıra elmi müəssisələrdə, kitabxanalarda tədbirlər keçirilmiş və yazıçının xatirəsi yad olunmuşdur. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası da öz ənənəsinə sadiq qalaraq "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından "Yusif Vəzir Çəmənzəminli" biblioqrafiyasını hazırlayaraq çap etmişdir. Qeyd edək ki, bu biblioqrafiya alim haqqında tərtib olunmuş ilk fundamental göstəricidir. Vəsaitdə ədibin əsərləri, həyat-yaradıcılığı, ictimai-siyasi fəaliyyəti haqqında 1907-2017-ci illərdə kitablarda və dövri mətbuatda dərc edilən zəngin material toplanmışdır.

Azərbaycan və rus dillərində çap edilən biblioqrafik göstəricidə ədibin 20-dən çox müxtəlif təxəllüslə yazdığı əsərlərinin adları verilmiş, həyat və yaradıcılığı haqqında bölmələr yaradılmış, bu bölmələrdə materiallar xronoloji prinsiplə və daxildə isə əlifba sırasına uyğun olaraq qruplaşdırılmışdır.

"Yusif Vəzir Çəmənzəminli" biblioqrafiyasında ədibin uzun müddət "Qurban Səid" təxəllüsü ilə yazdığı əsərlər, eyni zamanda, xarici ölkələrdə çapdan çıxan "Əli və Nino" romanı, onun müəllifinin kimliyi barədə tanınmış Azərbaycan alimlərinin mətbuatda dərc edilən məqalələri də öz əksini tapmışdır.

Biblioqrafiyada yazıçının AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan qiymətli əlyazmalarının da ayrıca bölmədə verilməsi göstəricinin əhəmiyyətini daha da artırmışdır. Vəsaitdən istifadəni asanlaşdırmaq məqsədilə sonda köməkçi göstəricilər tərtib olunmuşdur.




Kitabı tərtib edənlər Mədinə Vəliyea, Lalə Şirinova, Gülbahar Misirova, elmi redaktoru professor, əməkdar mədəniyyət işçisi Kərim Tahirov, redaktoru əməkdar mədəniyyət işçisi Gülbəniz Səfərəliyea, nəşriyyat redaktoru Mehriban Cəfərovadır. Biblioqrafiyanı tərtib edərkən Milli Kitabxananın Kitab və Dövri Mətbuat Fondundan, AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun əlyazmalarından, ədibin şəxsi arxivindən və digər mənbələrdən istifadə olunmuşdur. Biblioqrafiyaya ön söz əvəzi filologiya elmləri doktoru, professor Tofiq Hüseynoğlunun "Yusif Vəzir Çəmənzəminli" adlı məqaləsi verilmişdir. Bu vəsait alimin həyat və yaradıcılığını, demək olar ki, tamlıqla əhatə etmişdir. Nəzərə çatdıraq ki, Milli Kitabxanada biblioqrafiyanın təqdimat mərasimi və " Yusif Vəzir Çəmənzəminli-100" sərgisinə baxış keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan kitabxananın direktou, professor Kərim Tahirov bu məbədin "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından hazırlayaraq, çap etdiyi fundamental biblioqrafiyaların əhəmiyyətindən, bugünkü və gələcək nəsillər üçün tarixi dəyərindən danışdı. Bu müqəddəs missiyanı bundan sonra da davam etdirəcəklərini vurğuladı. Sonra çıxış edən Mədəniyyət və Turizm nazirinin müavini Vaqif Əliyev Y. V. Çəmənzəminlinin Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasındakı, onun daxili və xarici siyasətinin müəyyənləşdirilməsindəki böyük xidmətlərindən söz açdı. Azərbaycan Milli Kitabxanası tərəfindən ədibə layiq belə bir mükəmməl biblioqrafiyanın tərtib edilməsini təqdirəlayiq iş hesab etdi.

Tədbirdə filologiya elmləri doktoru, professor Tofiq Hüseynoğlu, Azərbaycanda Atatürk Mərkəzinin müdiri, millət vəkili, akademik Nizami Cəfərov, Azərbaycan Yazıçılar Birliyinin katibi, yazıçı-dramaturq İlqar Fəhmi, Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinin dekanı, professor Buludxan Xəlilov, Çəmənzəminlinin "İki od arasında" tarixi romanının təsiri altında yazılmış "Yenə iki od arasında" romanının müəllifi, yazıçı-dramaturq Elçin Hüseynbəyli çıxış etdilər. Çıxışlarda nəşrin görkəmli ədib və ictimai xadim haqqında tərtib olunmuş ilk fundamental biblioqrafiya olduğu, kitabda Çəmənzəminlinin əsərləri, həyat və yaradıcılığı, ictimai-siyasi fəaliyyəti haqqında zəngin material toplandığı, biblioqrafiyanın ədəbiyyatşünas alimlər, tədqiqatçılar üçün çox faydalı ola biləcəyi xüsusi qeyd edildi. Bildirildi ki, Y. V. Çəmənzəminli mətbuatda müxtəlif təxəllüslərlə çıxış edib, tərcüməçi kimi fəaliyyət göstərib, ölkənin ictimai-siyasi həyatında, dövlət quruculuğunda fəal iştirak edib. Əsərləri bir neçə dilə tərcümə olunub. Ədibin nəvəsi Leyla Vəzirova çıxış edərək, tədbirin təşkilatçılarına və iştirakçılara, kitabın ərsəyə gəlməsində zəhməti olan hər kəsə öz dərin təşəkkürünü bildirdi. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Y.V.Çəmənzəminlinin əsərləri, həyat və yaradıcılığı, ictimai-siyasi fəaliyyəti haqqında çap olunan "Yusif Vəzir Çəmənzəminli" biblioqrafiyası ədəbiyyatşünas alimlər, tədqiqatçılar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

***Ədilə Qocayeva,***
***AJB-nin üzvü***

# "Müzakirə və razılıq üçün mövzu var"

## Azər Badamov: "Əlavə qanlar tökməyinə ehtiyac qalmadan münaqişə tənzimlənəcək"

**- Azər müəllim, ATƏT-in Minsk Qrupunun amerikalı həmsədrinin iddiasına görə, bu ayın sonuna qədər nəzərdə tutulan Azərbaycan-Ermənistan xarici işlər nazirlərinin görüşündə Dağlıq Qarabağ münaqişəsinin həllində irəliyə doğru prinsipial addım atıla bilər. Bu fikirləri nə dərəcədə real hesab etmək olar?**

- Düşünmürəm ki, xarici işlər nazirlərinin görüşündən sonra Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində konkret addım atılsın. Çünki bu münaqişə o qədər uzun çəkmişdir ki, xarici işlər nazirlərinin addımları ilə çətin həll olunsun. Sadəcə, xarici işlər nazirlərinin görüşlərinin keçirilməsi yaxşı haldır. Bu, o deməkdir ki, müzakirə və razılıq üçün mövzu var və o istiqamətdə danışıqlar aparılır. Ümumi fikirlər müzakirə olunur, təkliflər ortaya qoyulur və yollar axtarılır. Amma nə qədər müzakirələr aparılsa da, yolu ancaq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində münaqişənin həlli yeganə və dəyişilməz variantdır. Ona görə də, münaqişə uzanır və atılan addımlar uğurlu olmur.



Müsahibimiz millət vəkili Azər Badamovdur

**- Xarici işlər nazirlərinin görüşündən sonra prezidentlərin görüşünə ümid bəsləmək olarmı?**

- Təbii ki, prezidentlər görüşməlidir. Münaqişənin həllində də hər hansı bir dəyişiklik prezidentlərin görüşləri ilə və yaxud da müharibə yolu ilə də həll edilə bilər. Hələ ki, danışıqlar üçün mövzu və müzakirə olunacaq məsələlər ortada var, biz müharibəyə ehtiyac görmürük. Müharibə son variant kimi həmişə əlimizdədir. Ordumuz günü - gündən güclənir. Orduda peşəkarlıq artır və qarşısına qoyulan istənilən məsələni qısa zamanda həll etməyə hazırdır. Lakin xarici işlər nazirləri görüşürsə və prezidentlərin görüşləri gözlənilirsə, bu, o deməkdir ki, sülh yolu ilə münaqişənin həllinə imkanlar var. Ona görə də, prezidentlərin görüşünə ümidimiz böyükdür və düşünürəm ki, əlavə qanlar tökməyinə ehtiyac qalmadan münaqişə tənzimlənəcəkdir.

**- Sizcə, Sarkisyan konstruktiv mövqe ortaya qoya bilərmi?**

- Düşünmürəm ki, Sarkisyana beynəlxalq təzyiqlər olsun. Həm də Sarkisyanın konstruktiv mövqe sərgiləməsi üçün heç beynəlxalq təzyiqlərə ehtiyac da qalmayacaq. Ermənistanda əhalinin Sarkisyana və Sarkisyan hökumətinə təzyiqlərinin artması münaqişənin həllinə gətirib çıxara bilər. Çünki iqtisadi blokada şəraitində yaşayan Ermənistan günü-gündən iflasa uğrayır. İnsanların vəziyyəti pisləşir, ölkədən qaçanların sayı ilbəil artır. Gənc nəsil ölkədə heç bir perspektiv görmədiyindən, ölkəni tərk edir. Ermənistan qocalar ölkəsinə çevrilir. Yaxın vaxtlarda seçkilər gözlənilir və ola bilsin ki, Sarkisyanın səlahiyyətləri azalsın və ölkə parlament idarə üsuluna keçəcək. Ermənistan parlament idarə üsuluna keçəndən sonra daxili böhran daha da böyüyərək, ümumiyyətlə, cinayətkar rejimin dəyişilməsinə gətirib çıxara bilər. Ermənistanda cinayətkar rejimin dəyişilməsi, Azərbaycanın gücü və qüdrətinin artmasının etirafı və erməni xalqında da insan kimi yaşamaq istəklərinin çoxalması, məhz Dağlıq Qarabağ münaqişəsinin həllində dönüş nöqtəsi ola bilər. Bütün bu proseslərin 2018-ci ildə baş verməsi ehtimalı böyükdür və başqa bir yol görmürəm.

**GÜLYANƏ**

# Biləsuvar əhalisi Ulu Öndər Heydər Əliyev ideyalarına sadiqdir



## YAP Biləsuvar rayon təşkilatının yaradılmasının 25 illik yubileyi ilə əlaqədar tədbir keçirilib

Dünən YAP Biləsuvar rayon təşkilatının yaradılmasının 25 illik yubileyi ilə əlaqədar təşkilatın akt zalında tədbir keçirilib.Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyub, Onun əziz və müqəddəs xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Tədbiri giriş sözü ilə açan YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Mirzəyev Yeni Azərbaycan Partiyasının yaranma tarixi barədə geniş məlumat verib və onun beynəlxalq aləmdə böyük nüfuza malik olan bir partiya olduğunu qeyd edib: "YAP Biləsuvar rayon təşkilatı Naxçıvan şəhərindən sonra respublikada yaranan ilk təşkilatdır. Biləsuvar əhalisi həmişə Ulu Öndər Heydər Əliyevin ideyalarına sadiq olmuş, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin uğurla həyata keçirdiyi daxili və xarici siyasəti dəstəkləyir və bu ideyalara sadiqdir".

Tədbirdə YAP Biləsuvar rayon təşkilatı idarə heyətinin üzvü Xalidə Ağayeva, şura üzvlərindən Firəngiz Həbibova və Möhrab Abbasov çıxış edərək, Yeni Azərbaycan Partiyasının xalqın partiyası olduğunu bildirdilər. Onlar qeyd etdilər ki, Biləsuvar əhalisi bundan sonra da Azərbaycan dövlətinin və xalqının mənafeyi üçün ölkə Prezidenti Cənab İlham Əliyevin ətrafında sıx birləşəcəklər.

Tədbirin sonunda bir qrup partiya fəalı Fəxri Fərmanla təltif edildi.

**RÖVŞƏN**

# Səbail rayonu 1 saylı ərazi nümayəndəliyində ilin yekunları müzakirə olunmuşdur



Səbail rayonunun qəsəbə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərində 2017-ci ilin yekunlarının müzakirəsinə başlanmışdır. Bununla əlaqədar, ilk hesabat iclası rayon icra hakimiyyəti başçısının 1 saylı sahə inzibati-ərazi dairəsi üzrə nümayəndəliyində keçirilmişdir. Rayonun mərkəz hissəsini əhatə edən təşkilatların, təhsil, səhiyyə və digər müəssisələrin, təsərrüfat xidmətlərinin nümayəndələrinin və sakinlərin iştirakı ilə keçirilən toplantıda 2017-ci il ərzində rayonun mərkəz hissəsində həyata keçirilən işlərə yekun vurulmuş, qarşıda duran vəzifələr müzakirə olunaraq, növbəti il üçün konkret tədbirlər müəyyənləşdirilmişdir. Hesabat məruzəsi ilə çıxış edən Səbail rayon icra hakimiyyəti başçısının 1 saylı sahə inzibati-ərazi dairəsi üzrə nümayəndəsi Tərlan Qasımov bildirmişdir ki, ötən il nümayəndəliyin ərazisində 20 həyətə 3500 kv asfalt döşənib, Əhməd Cavad küçəsi 1, Adil İskəndərov 3/3, Nizami 78, İbrahim İbrahimli 7, Üzeyir Hacıbəyov 3, 4, 18, Zərifə Əliyeva 14, 17, Həsən Seyidbəyli 3, 4, 5 - ümumilikdə 40 ünvanda 7500 kv dam örtüyü təmir olunub, 700 p/m ümumi istifadə sahəsi şüşələnib, 65 qapı, 40 pəncərə dəyişdirilib, balansda olan binalarda 3000 p/m tüstü bacaları təmizlənib.

RİH tərəfində Abbasqulu Abbaszadə küçəsindəki həyətdə yeni "Abad məhəllə" yaradılması ilə bağlı işlər həyata keçirilir.

Ötən il "Formula-1" yarışları ərəfəsində Xaqani, Üzeyir Hacıbəyov, Puşkin küçələrində və burada yerləşən binaların fasad və dam örtüklərində təmir işləri aparılmış, hazırda Bülbül prospekti, Rəşid Behbudov, Əhməd Cavad və s. küçələrdə bir sıra binaların fasadları təmir olunur.

Bu gün mərkəz ərazidə Dənizkənarı Milli Parkda "Xəzər Waterfront" istirahət-əyləncə-alış-veriş Mərkəzinin, Zərifə Əliyeva küçəsində yeni "İnterkontinental" və "Dinamo" mehmanxanalarının, Milli Təhlükəsizlik Xidməti Səbail rayon idarəsinin yeni inzibati binasının tikintisi, İncəsənət Muzeyinin əsas binasının, Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin binasının əsaslı təmiri davam edir.

Şəhərin mərkəz hissəsində köhnə yaşayış binalarının sökülüb yerində müasir binaların tikintisi ilə bağlı pilot layihələrə əsasən, Rastropoviçlər küçələrində yeni bina tıkintisi ilə bağlı müasir layihələr işlənib təsdiq olunub və artıq icraya başlanıb.

Ötən il nümayəndəlik ərazisində bir neçə iməcilik və ağacəkmə aksiyaları keçirilmiş, mərkəzdə Üzeyir Hacıbəyov küçəsi, Neftçilər və Parlament prospektləri, ərazidəki park və istirahət bağlarında salınmış yaşıllıqlar zonasında böyük miqdarda dekorativ gül kolları əkilərək, burada gözəl kompozisiyalar yaradılmışdır.

Yığıncaqda çıxış edən Səbail rayon icra hakimiyyəti başçısının müavini Abit Əliyev Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyev tərəfindən Bakı şəhərinə göstərilən diqqət və qayğıdan, gələcəkdə şəhərin mərkəzinin daha da abadlaşdırılması, burada sakinlər və şəhərimizin çoxsaylı qonaqları üçün hər cür şəraitin yaradılması üçün görülməli olan işlərdən danışmışdır. Abit Əliyev 2017-ci ildə rayonda görülən işlər və həyata keçirilmiş sosialyönümlü layihələr barədə geniş məlumat vermiş, qeyd etmişdir ki, ölkə başçısının tapşırıqlarına əsasən, şəhərin mərkəzini əhatə edən 1 saylı nümayəndəliyin ərazisində bir sıra mühüm layihələr həyata keçirilir və paytaxtımızı dünyanın ən gözəl şəhərlərindən birinə çevirmək istiqamətində görülən işlər gələcəkdə də davam etdiriləcəkdir. Bidirilmişdir ki, RİH tərəfindən qəsəbə və yaşayış məntəqələrində məhəllələr abadlaşdırılacaq, qəsəbədaxili yolların təmiri, su və kanalizasiya sistemlərinin yenidən qurulması, qəsəbədaxili küçələrin asfaltlaşdırılması və işaqlandırılması ilə bağlı tədbirlər görüləcəkdir.

Yığıncaqda mövcud problemlərdən danışılmış, sakinləri maraqlandıran suallar cavablandırılmış, bir sıra müraciətlərin həlli ilə bağlı müvafiq tapşırıqlar verilmişdir.

# Aİ-ni tərk etmək üçün Polşa referendum keçirə bilər

## *Tusk: Polşa Avropa İttifaqının tərkibindən çıxa bilər*

The Telegraph yazır ki, Polşa Avropa İttifaqını tərk etmək üçün referendum keçirə bilər. Bu barədə Avropa İttifaqı Şurasının sədri Donald Tusk bəyan edib ki, rəsmi Varşava Brüsselə yalnız pul mənbəyi kimi baxır və əgər maliyyələşmə dayandırılarsa, Polşada referendum keçiriləcək. Tuskun qeyd edir ki, Polşa hakimiyyəti Brüsseldən maliyyə vəsaitinin alınmasının dayandırılması və mənfəət əldə etməyəcəyi reallığı ilə qarşılaşacağı təqdirdə, Avropa İttifaqını tərk etmək barədə referendum keçirəcək.

Xatırladaq ki, Böyük Britaniya da son vaxtlar Avropa İttifaqını tərk etmək barədə qərar qəbul et-



sözlərinə görə, Polşada hakimiyyətdə olan "Hüquq və Ədalət" partiyası üçün Avropa İttifaqına üzvlükdə maraq, yalnız ondan vəsait almaqdan ibarətdir. Polşa hakimiyyəti üçün ümumi bazar, haqq-ədalət rejimi, təhlükəsizliyin qarantiyası heç bir əhəmiyyət kəsb etmir. Əgər Varşava Avropa İttifaqına vəsait ödəməyə təhrik etdirilərsə, Tuskun sözlərinə görə, Polşa həmin an Böyük Britaniyada keçirilən referenduma analoji bir referendum keçirmək qərarı verəcək.

### Baxmayaraq ki, Polşa Avropa İttifaqı yarandığı vaxtdan ona ilk üzv dövlət olub

2017-ci ilin dekabr ayında Brüssel Polşanı Avropa İttifaqında səs hüququndan məhrum etmək barədə sanksiya proseduruna start verib. Brüsselin narazılığına səbəb Polşanın lideri Anjey Dudanın hüquqi islahatları olub. Rəsmi Brüssel tərəfindən iddia olunur ki, Dudanın hüquqi islahatları demokratiyanın baza prinsiplərinə ziddir.

Donald Tusk Böyük Britaniyanın Aİ-ni tərk etməsi ilə paralel müqaisələr apararaq, müvafiq ssenarinin təkrarlanmasının mümkünlüyünü vurğulayaraq, di. Göründüyü kimi, Avropa ölkələri, ələlxüsus, ən nüfuzlu ölkələr, hətta Avropa İttifaqı üzvlüyünə ilk qatılan ölkələr, artıq Aİ-ni çox asanlıqla tərk etmək qərarına gəlir. Deməli, bu təşkilatın nüfuzu öz coğrafi arealında belə yetərincə deyil və qurumda üzv olaraq qalmaq, artıq heç bir ölkənin maraq dairəsinə uyğun gəlmir. Polşanın misalında, aydın olur ki, hər bir ölkə özünün hüquqi islahatlarını aparmaq marağındadır və buna Avropa İttifaqının münasibətinin necə olacağı belə, heç bir narahatlıq doğurmur. Hər bir Avropa ölkəsi öz qanunlarını, öz qərarlarını heç də Avropa İttifaqının qərarlarından aşağı hesab etmir. Bir sözlə, Aİ və onun mövqeyi, qərarları, qanunları heç də hərhansı dövlətin qərarlarından, qanunlarından daha ali hesab edilmir. Hətta Böyük Britaniyanın və Polşanın misalında da göründü ki, birliyin tələbləri, sanksiyaları belə heç bir Avropa dövləti tərəfindən hesaba alınmır və buna məhəl qoyan da yoxdur. Daha dəqiq desək, bütün bu faktlar, onu deməyə əsas verir ki, Avropa İttifaqı, nəinki öz nüfuzunu itirib, hətta bundan sonra mövcudluğu belə şübhə doğurur.

*İnam HACIYEV*

# Angela Merkel və ASDP hakim koalisiyanı formalaşdırmaq barədə razılığa gəlib



Almaniyada hakim partiyanın formalaşdırılması üzrə danışıqların hər üç iştirakçısı - Xristian demokratik və Xristian sosialist ittifaqları (XDİ/XSİ), həmçinin Almaniyanın sosial demokratik partiyası (ASDP) yeni hökumət barədə koalisiya sazişinin əsasını təşkil edəcək proqram sənədini razılaşdırıb. Bu DPA agentliyi məlumat yayıb. ASDP 28 səhifəlik sənədi sonuncu imzalayıb. Bundan öncə isə proqram Angela Merkelin mühafizəkar bloku tərəfindən dəstəklənib. Yaxın vaxtlarda hər üç partiyanın liderləri mətbuat qarşısında çıxış edəcəklər.





# Ermənistanda aprel qiyamı baş verəcəkmi? Sarkisyan "iqtisadi artımdan", Karapetyan isə "sadə həyat tərzindən" bəhs edir

**Yeni 2018-ci il başlayar-başlamaz, Ermənistanda qiymətlərin sürətlə artması sadə ermənilərin növbəti narazılıqları ilə müşahidə olunmaqdadır. Belə ki, Ermənistan hakimiyyətinin yüksək ranqlı məmurları Serj Sarkisyanın "7 faizlik iqtisadi artım" barədə "tezisləri" fonunda gen-bol fikirlərlə çıxış etsələr də, fakt budur ki, bu "artıma" görə, vətəndaşlar öz ciblərindən xərcləyəcəklər. Daha doğrusu, erməni vətəndaşı qiymət artımı fonunda və məcburi şəkildə, acından ölməmək üçün özünü bahalaşmış ərzaqla təmin etməyə məcbur olacaq.**

Ermənistan mediası da sözügedən məsələ ilə bağlı yazır ki, qiymət artımı ötən ilin son kvartalından başlasa da, hazırkı vaxta qədər davam edir, hətta sürətli həddə doğru artır. Ermənistanın "1in.am" saytının siyasi təhlilçisi Aram Amatuni öz şərhində qeyd edir ki, ölkənin 2017-ci illə bağlı iqtisadi göstəricisi, tam olaraq başa çatdırılmayıb, halbuki hakimiyyət strukturlarında Serj Sarkisyana qədər hər kəs bəyan edir ki, guya növbəti ilin də iqtisadi göstəricisi artaraq, 6 faizi təşkil edəcək. "Demək ki, hakimiyyət buna əmindir"-deyə qeyd edən Amatuniyə görə, hakimiyyət, əslində, bu vasitə ilə növbəti qiymət artımlarını anons edir. Daha dəqiq desək, Ermənistanda "iqtisadi artım tempi" qiymətlər artırılmaqla və xalqın cibinə girilməklə "reallaşdırılır".

Erməni müəllif xatırladır ki, ümumiyyətlə, Serj Sarkisyan 2013-cü ildən sehrli göstəricilərlə xalqın başını aldatmaqla məşğuldur. Bütün bunlar isə, Serj Sarkisyan və baş nazir Karen Karapetyan cütlüyünün hakimiyyət uğrunda mübarizə cəhdləri hesab oluna bilər. "Belə çıxır ki, əgər Karen Karapetyan da bu kimi sehrli göstəricini təmin edirsə, demək, 2018-ci ildəki yerini qaranta almağa çalışır"-deyə erməni şərhçisi yazır.

### 2018-ci ilin kontekstində Karapetyan ilin əsas fiqurantlarındandır

Bu arada, adıçəkilən saytın digər siyasi təhlilçisi Sarqis Artsruni öz şərhində yazır ki, 2018-ci ilin aprelində hakimiyyətin ən yüksək pilləsinə yiyələnmək üçün prezident Serj Sarkisyanla gizli savaş aparan baş nazir Karen Karapetyan yanvarın 8-dən 12-nə qədər xarici ölkədə məzuniyyətdə olacaq. Bu isə, onun sözləri ilə əməlinin üst-üstə düşməməsi ilə müşahidə olunmaqdadır. SİTAT: "Cəmi bir neçə gün qabaq, ötən ilin sonunda, baş nazir yeni il tətillərinin keçirilməsi ilə bağlı mövzuya toxunub. "Biz, bayramdan sonra yaxşı yaşamağımız üçün, tətillərimizi cah-cəlallı şəkildə keçirməməliyik"-deyən Karapetyanın bu ifadəsi iki səbəbə görə intriqalıdır. 2018-ci ilin kontekstində Karapetyan ilin əsas fiqurantlarındandır. Aprel artıq dağların arxasında deyil və hazırda hadisələr aylarla deyil, günlərlə və saatlarla inkişaf edir. Belə bir vəziyyətdə ölkəni 4-5 günlük tərk etməyin özü böyük cah-cəlallıq göstəricisidir, özü də hadisələrin inkişafı ictimai-siyasi sferada deyil, saray intriqaları fonunda baş verməkdədir".

### Baş nazir Ermənistanın istirahət üçün normal ölkə olmadığını necə nümayiş etdirdi?

Erməni təhlilçisinə görə, əgər baş nazir məzuniyyətə gedirsə, bu zaman 2018-ci ildə hər hansı bir intriqanın baş vermədiyini ehtimal etmək mümkündür, ya da Karen Karapetyan hər şeyi Serj Sarkisyanın qərarlarına buraxıb, halbuki proseslər çərçivəsində belə bir informasiya yaranıb ki, hakimiyyət elitasının bayramqabağı banketində baş nazir Serj Sarkisyanla münasibətlərinin "isti" olduğunu nümayiş etdirib, hətta tost da deyib. Lakin Karen Karapetyanın məzuniyyətini xarici ölkədə keçirmək qərarını verməsi onun 2018-ci illə bağlı planları baxımından ruh yüksəkliyində olduğunu da sərgiləməkdədir.

### Erməni təhlilçi: "Xarici ölkələrə elit istirahətlərə yollanan hakimiyyət nümayəndələrinin Ermənistanda hər üçüncü vətəndaşın rəsmi olaraq, səfalət içində yaşadığı halda, buna hüquqları çatırmı?"

Erməni müəllif bu kimi faktları sadalayaraq, ortaya belə bir sual çıxarır. "Ümumiyyətlə, Karen Karapetyanın Ermənistan vətəndaşlarına "kəmərlərini sıxmaq" istiqamətində tövsiyələri və bunun əvəzində, özünün hakimiyyət statusundan istifadə edərək, digər hər hansı xarici ölkənin turizminin inkişafına dəstək göstərməyi hansı çərçivəyə sığır?" deyə sual edən Sarqis Artsruni daha bir sual ünvanlayır: "Xarici ölkələrə elit istirahətlərə yollanan hakimiyyət nümayəndələrinin Ermənistanda hər üçüncü vətəndaşın rəsmi olaraq, səfalət içində yaşadığı halda, buna hüquqları çatırmı?".

Beləliklə, Ermənistanda cəmi üç ay sonra keçiriləcək parlament seçkiləri öncəsi istər prezident Serj Sarkisyan özünün "iqtisadi artım tempi" ilə, istərsə də baş nazir Karen Karapetyanın "sadə yaşamaq" çağırışları bir hədəfə yönəlib - hakimiyyəti əldə saxlayaraq, erməni xalqının qanını daha çox "içməyə"...

Ancaq Ermənistanda cərəyan edən son proseslər fonunda, həm də belə qənaətə gəlmək olar ki, qarşıdan gələn aprel seçkiləri xalqı səfalət və aclıq içində məhv olan ölkəni daha ağır duruma doğru sürükləyəcək. Əlbəttə, sadə erməni xalqı mövcud hakimiyyətə qarşı qiyam qaldırmasa. Qiyam isə, necə deyərlər, astanadadır...

*Rövşən NURƏDDİNOĞLU*

TƏRS BAXIŞ

# “REAL” real danışmadı və...

## *Nə konfrans keçirildi, nə də partiya yaradıldı*

Bir müddət “Respublikaçı Alternativ Hərəkatında” səssizlik hökm sürdükdən sonra, bu qurum daxilində də çaxnaşma və qarşıdurmalar baş qaldırıb. Buna səbəb isə ilk növbədə, “REAL” sədri İlqar Məmmədovun həbsdə olmasıdır. Yəni sədrin həbsdə olması onun işini davam etdirən iki-üç funksionerin ziddiyyətli vəziyyətə düşmələrinə səbəb olub. “REAL”-ın icraçı katibi Natiq Cəfərli ilə hərəkatın idarə heyətinin üzvü Azər Qasımlı arasındakı qarşıdurmanın əsas səbəbi İ.Məmmədovun həbsxanadan zaman-zaman göndərdiyi məktub-müraciətləridir. İ.Məmmədov hələ ötən il hərəkatın idarəsini, məhz A.Qasımlıya həvalə etdiyini bildirmişdi. Məhz bundan sonra “REAL” adından daha çox mətbuatda görünən, müxtəlif ictimai-siyasi və iqtisadi proseslərə münasibət bildirən N.Cəfərli onun fəallığını görməzlikdən gələn İ.Məmmədova, sözün açığı, qəzəbi baş qaldırıb. Çünki “REAL” sədrinin N.Cəfərliyə münasibətdə A.Qasımlıya üstünlük verməsi, həqiqətən də, belə bir situasiyanın yaranmasına gətiribçıxarmış olub.

### “REAL” partiyaya çevriləcəkmiş?

Ortada daha bir maraqdoğurucu faktor var. N.Cəfərli ilə A.Qasımlı arasında daha öncədən həll olunmamış qalan ziddiyyət yaşanmaqdadır. Ziddiyyətin əsasını isə, “REAL”-ın siyasi quruma çevrilib-çevrilməməsi məsələsi təşkil edir. Çünki bir neçə zaman idi, bəyan edilmişdi ki, “REAL” partiyaya çevrilir və bu qurum təsis konfransı çağırmaq üzrədir. Ancaq nə konfrans keçirildi, nə də partiya yaradıldı. Bunun yerini isə qarşılıqlı anlaşmazlıq, ziddiyyət və ittihamlar əvəzlədi. Beləliklə, A.Qasımlı “REAL”-ın daha tez siyasi partiyaya çevrilməsini tələb edib. N.Cəfərli isə, mümkün qədər bu prosesi uzatmaq istəyirdi və deyəsən buna nail olmaqdadır.

**“REAL” da yaxın dövrlərdə düşərgədəki digər siyasi partiyaların aqibətlərini yaşamalı olacaq**

N.Cəfərli bu məsələ barədə sosial şəbəkədə və mediada fikirlərini daha öncələr də açıqlayıb. Fikirlərdən görünür ki, “REAL” müxalifətdə yeni idarəetmə forması gətirib və indi bu prosesi təkmilləşdirmək lazımdır, sonra isə, partiyaya çevrilmək məsələsinə baxmaq olar.

A.Qasımlı isə belə düşünmür. Həmçinin, o, N.Cəfərlinin guya hakimiyyətə işlədiyini iddia edir. Daha dəqiq desək, onun “Natiq Cəfərlinin həbsi və azadlığa çıxması mənim üçün qaranlıq qalıb” fikri qarşıdurmanı daha da gərginləşdirib. Bu isə, “REAL” üçün heç bir səmərəli nəticə verməyib. Əksinə, nəzərdə tutulan planlar da reallaşmamış qalıb. Artıq hesab etmək olar ki, “REAL” da yaxın dövrlərdə düşərgədəki digər siyasi partiyaların aqibətlərini yaşamalı olacaq. Hətta partiyaya çevrilməmiş olsa belə...

**Rövşən RƏSULOV**

# Türkiyədə avtobus qəzası: 9 nəfər ölüb, 28 nəfər yaralanıb



Şırnak vilayətinin Silopi rayonunda İraq vətəndaşlarını daşıyan avtobusun aşması nəticəsində 9 nəfər həlak olub, 28 nəfər yaralanıb. AZƏRTAC Anadolu agentliyinə istinadla xəbər verir ki, Türkiyə və İraq arasında sərnişin daşıyan xarici dövlət nömrə nişanlı avtobus Silopi-Habur avtomobil yolunun 20-ci kilometrində aşıb. İlkin məlumata görə, ölənlər arasında üç uşaq da var. Hələlik məlum olmayan səbəbdən sürücünün idarəetməni itirdiyi və avtobusun yoldan çıxaraq aşdığı bildirilir. Hadisə yerinə təcili yardım maşınları gəlib, yaralılar Silopi dövlət xəstəxanasına aparılıb.

# Lənkəranda mikroavtobusun aşması nəticəsində 10 nəfər xəsarət alıb

Yanvarın 12-də Lənkəran rayonunun Ürgə kəndi ərazisində ağır yol-nəqliyyat hadisəsi baş verib. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Lənkəran-Bakı marşrutu üzrə hərəkət edən 85 CA 442 dövlət qeydiyyat nömrə nişanlı sərnişin mikroavtobusu 44 BO 008 dövlət qeydiyyat nömrə nişanlı “KİA” markalı avtomobillə toqquşub. Zərbənin gücündən sərnişin mikroavtobusu yolun kənarına aşıb.

Hadisə zamanı sərnişinlərdən 10 nəfəri müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Onlardan 7-si Lənkəran Rayon Mərkəzi Xəstəxanasına müraciət edib. Xəstəxananın travmatologiya şöbəsinin müdiri Elşad Qubadovun verdiyi məlumata görə, müraciət edən xəstələrin vəziyyəti ağır olmadığından onlara ilkin tibbi yardım göstərilib, ambulator müalicə almaq üçün evlərinə buraxılıblar. Faktla bağlı araşdırma aparılır.

# Niyaməddin Orduxanlı: “Əli Kərimli və Cəmil Həsənli xarici məkrli qüvvələrdən asılı olan insanlardır”

## *Müsahibimiz BAXCP sədrinin müavini Niyaməddin Orduxanlıdır*

***- Niyaməddin bəy, “Milli Şura” daxilində seçkilərdə “vahid namizəd” irəli sürülməsi ilə bağlı C.Həsənli ilə Ə.Kərimli arasında ciddi qarşıdurma yaranıb. Sizcə, bu qarşıdurma tərəflərin yollarının ayrılmasına aparıb çıxara biləcəkmi?***



- 2013-cü il prezident seçkilərində C.Həsənli sırf təsadüfən namizəd olmuş bir şəxsdir. Yəni 2013-cü il prezident seçkilərində Rusiyanın layihəsi olan “Milli Şura”da C.Həsənli bəlkə də siyahıda 20-ci yerdə duran adam idi. Rusiyanın qaranlıq dairələrinin ələ aldığı, konkret desək, “verebovka” etdiyi R.İbrahimbəyov müəyyən bir müddət üçün Rusiyaya lazım idi və bu ölkə Azərbaycanda keçirilən seçkilərdə iştirakı üçün R.İbrahimbəyovu namizəd kimi ortalığa atmışdı. Bu layihə qısa müddətli olduğuna görə, R.İbrahimbəyov əmr aldı ki, get öz kinonu çəkməyinlə məşğul ol, bitdi məsələ. Ondan sonra İ.Qəmbər, R.Quliyev, Ə.Kərimli və digərləri məcburiyyət qarşısında qalıb ictimaiyyətin gülüş obyektinə çevrilməmək üçün C.Həsənli kartından istifadə etdilər. Yəni C.Həsənlinin hər hansı bir namizəd kimi olmağı nəzərdə tutulmurdu. C.Həsənli də çox uğursuz bir namizəd idi. Ümumiyyətlə, C.Həsənlini 2010-cu ilə qədər deputat olduğu üçün Ə.Kərimli partiyadan qovmuşdu. Səbəb isə, C.Həsənlinin Milli Məclisdə getməmək haqqında AXCP rəyasət heyətinin verdiyi qərarı rədd etməsi idi. Xatırlayırsınızsa, Ə.Abiyev Ə.Kərimlini Milli Məclisdə, haqlı olaraq, təhqir etmişdi və o da uşaq kimi küsüb Milli Məclisə getməmək haqqında qərar qəbul etmişdi. Ancaq Ə.Kərimlinin bu qərarına C.Həsənli heç bir əhəmiyyət verməmişdi. Həmin dövrdə C.Həsənli Ə.Kərimlinin müavini idi. Bu hadisədən sonra Ə.Kərimli onu partiyadan qovdu. 2015-ci ildə C.Həsənli deputat olmayandan sonra radikal müxalifət oldu. Ondan sonra Ə.Kərimli də C.Həsənlini partiyadan qovmağını yadından çıxartdı. Hazırkı mərhələdə, bu iki şəxsin prezident seçkilərində iştirak etmək üçün “vahid namizəd” olmaq istəkləri sual altındadır. Çünki bu gün bu şəxslər o dərəcədə zəif bir durumdadırlar ki, inanmıram ki, nə Ə.Kərimli, nə də ki, C.Həsənli namizəd ola bilsinlər. Adları çəkilən şəxslərin xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur ki, onlar özləri üçün nə isə bir iş görə bilsinlər.

***-Sizcə, xarici qüvvələr hansını qabağa çıxara bilər?***

- Ə.Kərimli və C.Həsənli xarici məkrli qüvvələrdən asılı olan insanlardır. Hər kəsə bəlli olan fakt ondan ibarətdir ki, xaricdəki pozucu qruplar radikal müxalifət düşərgəsində olanlardan bir vasitə kimi istifadə edirlər. O cümlədən, müxalifətçilər də xarici qüvvələrə özlərini reklam etmək üçün hər vasitəyə əl atırlar. Çünki onlar bunun qarşılığında pul alırlar.

***- “Milli Şura”da yaşanan çəkişmələr Müsavatda da cərəyan etdiyini demək olarmı?***

- İ.Qəmbər və A.Hacılı paradoksunu xarakterizə etmək istəyirəm. Müsavatın sonuncu qurultayında A.Hacılı başqan seçildi. A.Hacılı başqan seçiləndə İ.Qəmbər həm də, elə bir qərar qəbul etdirdi ki, növbəti prezident seçkilərində Müsavatın başqanının kim olmağından asılı olmayaraq, İ.Qəmbər namizəd olacaq. Amma bu, heç nəyi dəyişən deyil. Çünki 25 ildir ki, İ.Qəmbərin müxtəlif formalarda namizədliyi olub. Nə uğur əldə edilib? Əlbəttə ki, heç bir uğur əldə etməyib və elə bundan sonra da, bu, belə də qalacaqdır.

***- Müxaliflər seçkilərdə uduzurlar, cəmiyyətdə heç bir dəstək əldə edə bilmirlər, bununla belə siyasətdədirlər. Bu anormallığı nə ilə izah etmək olar?***

- Ümumiyyətlə, heç bir ölkədə 25 il müxalifətdə qalıb, siyasətlə məşğul olan partiya sədri olmur. Bunu qonşu dost, qardaş ölkə olan Türkiyənin siyasi partiya yetkililərinin timsalında görmək olar. Azərbaycan müxalifəti isə, siyasət səkanından əl çəkmək istəmirlər. Bu da onların siyasətə gəlir mənbəyi kimi baxmalarından irəli gəlir. Bu günə qədər heç bir uğur əldə etməyən müxalif partiya sədrləri bundan sonra da hər hansı bir uğur qazana bilməyəcəklər. Radikal müxalifətin iflasa uğramasının kökündə aparılan yanlış siyasət durur. O siyasət ki, qisasçılığa, kinliliyə, pozuculuğa əsaslanır. Demək olar ki, müxalifət düşərgəsində olan şəxslərin gözləri bir-birini götürmür və bir-birilərini sıradan çıxarmaq üçün əllərindən gələni edirlər. Birlik olmayan bir yerdə də, heç bir irəliləyişdən söhbət gedə bilməz.

**GÜLYANƏ**

# Keçmiş məhkumdan bir kiloqramdan çox marixuana götürülüb



Daxil olmuş əməliyyat məlumatı əsasında yanvarın 11-də Füzuli rayonunun 1-ci Qayıdış qəsəbəsi ərazisində “VAZ-21074” markalı avtomobil polis əməkdaşları tərəfindən nəzarət qaydasında saxlanılaraq Rayon Polis Şöbəsinə gətirilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, araşdırma zamanı avtomobili idarə edən şəxsin Əsgər Hüseynov, sərnişininin isə Ağdam rayon sakini, əvvəllər məhkum olunmuş Altay Əhmədov olması müəyyən edilib. Polis əməkdaşları tərəfindən onların üzərlərinə və avtomobilə baxış keçirilib. Nəticədə avtomobilin arxa oturacağının altında gizlədilmiş, A.Əhmədova məxsus, sellofan torbada olan külli miqdarda narkotik vasitə aşkarlanaraq götürülüb.

Ekspertizaya təqdim olunan narkotik vasitənin 1 kiloqram 455 qram marixuana olması barədə rəy verilib. Faktla bağlı cinayət işi başlanılıb, istintaq-əməliyyat tədbirləri aparılır. Saxlanılan şəxslər və maddi sübutlar istintaqa təhvil veriliblər.

# İnsan hüquqlarının qorunmasına dair Azərbaycan qanunları

***Azərbaycan Respublikası Konstitusiyasının 72-ci maddəsinə görə, hər kəs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına riayət etməli, başqa şəxslərin hüquq və azadlıqlarını pozmamalıdır. Hüquq da, dövlət kimi, müəyyən mərhələlərdə cəmiyyətin inkişafının məhsuludur. Hüquq sıx qarşılıqlı əlaqədə olduğu dövlətlə birlikdə inkişaf edir. Bu qarşılıqlı əlaqə bu göstəricilərdə təzahür edir:1.Hüquq dövlətsiz inkişaf edə və fəaliyyət göstərə bilməz, ona görə ki, dövlət elə bir siyasi mexanizmdir ki, o, hüququ ümumməcburi davranış qaydaları (hüquq normaları) şəklində formalaşdırır. Qanun - dövlətin müvafiq səlahiyyətli orqanlarının (parlament, hökumət və s.) hüquqyaratma fəaliyyətinin nəticəsidir.2. Dövlət hüquq normalarının həyata keçirilməsini təmin edir, yəni hüququ qoruyur.***

Hüququn keşiyində duran, məhz dövlət mühafizəsi, dövlət məcburetmə imkanları hüquq normalarını cəmiyyətdə fəaliyyət göstərən digər sosial normalardan (məsələn, adət, əxlaq və s.) fərqləndirir.3. Yalnız hüququn dövlətə ehtiyacı yox, həmçinin dövlətin də hüquqa ehtiyacı var. O hüquqa arxalanmadan, normal və səmərəli fəaliyyət göstərə bilməz.Yeri gəlmişkən, 1995-ci ildə Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının Konstitusiya layihəsini hazırlayarkən, ölkəmizin çox konfessiyalılıq xüsusiyyətini dəqiq qiymətləndirib və Əsas Qanunumuza bununla bağlı normaların daxil edilməsini təmin edib. Yəni müstəqil dövlətimizin ilk Konstitusiyasına vicdan və dini etiqad azadlığı ilə bağlı beynəlxalq hüququn əsas prinsipləri ilə yanaşı, Azərbaycan dövlətinin “dünyəviliyi” və bunun tərkib hissəsi olan “bütün dini etiqadların qanun qarşısında bərabərliyi” müddəaları da daxil edilib (konstitusiyanın, müvafiq olaraq, 7-ci maddəsinin və 18-ci maddəsinin I bəndləri). Bu prinsiplər ölkəmizin Əsas Qanununun göstərişlərinin konkretləşdirilməsi məqsədilə qəbul olunmuş bütün qanunvericilik aktlarında gözlənilmiş və dövlət orqanları öz əməli fəaliyyətlərində ona dönmədən əməl edirlər (ekspress.az). Ekspertlər qeyd edirlər ki, insan hüquqlarının həyata keçirilməsində milli hökumətlər, xüsusilə, böyük rol oynayırlar. İnsan hüquqları normaları ayrı- ayrı şəxslər arasındakı və ayrı-ayrı şəxslərlə dövlət arasındakı münasibətləri əhatə edir. Bütün bunlardan da, belə bir nəticəyə gəlmək olar ki, insan hüquqlarının qorunması və təşviqi, hər şeydən əvvəl, milli vəzifədir və hər bir dövlət onun həlli üçün məsuliyyət daşımalıdır. O da qeyd olunur ki, bir çox ölkələrdə demokratik hakimiyyət formalarının meydana gəlməsi və ya onların yenidən yaranması insan hüquqlarının özülünü təşkil edən hüquqi və siyasi əsasların əhəmiyyətini qeyd edir. Beləliklə, getdikcə belə bir fakt, daha aydın üzə çıxır ki, insan hüquqlarının səmərəli şəkildə həyata keçirilməsi onların qorunması və təşviqi üçün milli infrastrukturların yaradılmasını tələb edir. Son illərdə bir çox ölkələrdə insan hüquqları üzrə rəsmi təsisatlar da yaradılıb. Belə təsisatların vəzifələri, hər bir ölkə üçün son dərəcə müxtəlif olsa da, onların hamısı ümumi məqsədlərə yönəldilib. İnsan hüquqlarının pozulmasına dair şikayətdə əks etdirilmiş halların araşdırılması zamanı Müvəkkil istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarına, hərbi hissələrə, habelə, polis bölmələrinə, müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanalarına, cəzaçəkmə müəssisələrinə, qarnizon hauptvaxtlarına, psixiatriya müəssisələrinə və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərə daxil olmaq; saxlanılan şəxslərlə, habelə, müvafiq məlumatı verə biləcək istənilən digər şəxslə təkbətək və ya zəruri saydığı halda mütəxəssisin və ya tərcüməçinin iştirakı ilə görüşmək və söhbət etmək; saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, eləcə də, həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan bütün sənədlərlə tanış olmaq və surətlərini almaq; akt tərtib etmək, həyata keçirdiyi tədbirlərin gedişini və nəticələrini protokollaşdırmaq; səlahiyyətli dövlət orqanlarına müvafiq tövsiyələr vermək və həmin tövsiyələrə müəyyən edilmiş müddətdə cavablar almaq hüququna malikdir.

“İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 22 fevral 1998-ci il tarixli Fərmanında deyilir:”Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra, Beynəlxalq Dövlətlər Birliyinin tamhüquqlu üzvü kimi, əsrlərin sınağından çıxmış ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək, demokratik-hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçmişdir. Bu gün hər bir cəmiyyətin və dövlətin inkişafı demokratiya və insan hüquqlarına hörmət olmadan mümkün deyil. Demokratiya, inkişaf, insan hüquq və azadlıqlarına hörmət birbiri ilə üzvi surətdə bağlı olan və bir-birini şərtləndirən amillərdir. İnsan hüquqları müxtəlif iqtisadi və siyasi sistemlərin, ideologiyaların və mədəniyyətlərin mövcud olduğu müasir dünyamızda insanları və cəmiyyətləri birləşdirən, onları insanilləşdirən ən əsas meyardır. Bəşər sivilizasiyasının ən müdrik kəşflərindən sayılan insan hüquqları bu gün hamının anladığı və anlamalı olduğu əvəzsiz nailiyyətdir. İnsan hüquqlarına hörmət, insan hüquqlarının qorunması müasir dünyaya qovuşmağın əsas yoludur. Məlumdur ki, sülh və əmin-amanlıq olmadan insan hüquqlarına tam riayət olunması mümkün deyil. Ermənistanın Azərbaycana qarşı artıq on il davam edən silahlı təcavüzü nəticəsində, torpaqlarımızın 20 faizi işğal olunmuş, bir milyondan artıq soydaşımız adi insan hüquqlarından məhrum edilmişdir. Vaxtilə ölkəmizdə insanların həyatını təhlükəyə məruz qoyan hərc-mərclik, qanunsuz silahlı birləşmələrin mövcudluğu, əhalidə qanunsuz silahların cəmləşməsi, terrorçuluq və mütəşəkkil cinayətkarlığın tüğyan etməsi insan hüquq və azadlıqlarının kütləvi surətdə pozulmasına gətirib çıxarmışdı. Bu vəziyyət Azərbaycan xalqını vətəndaş müharibəsi həddinə çatdırmış, milli dövlətçiliyinin itirilməsi təhlükəsi qarşısında qoymuşdu. Bu ağır sınaqlardan çıxmış Azərbaycan xalqı mətin iradə, həmrəylik və əzmkarlıq nümayiş etdirərək, bəşər sivilizasiyasının idealları olan azadlığı, ədaləti və sülhü özünün inkişaf yolu seçmişdir. Son illər ölkəmizdə insanların azad və təhlükəsiz yaşaması, müstəqilliyimizin möhkəmləndirilməsi istiqamətində çox ciddi tədbirlər həyata keçirilmişdir. Azərbaycan dövləti ərazi bütövlüyünün, qaçqınların və məcburi köçkünlərin pozulmuş hüquqlarının tam bərpası üçün sülhsevər siyasət apararaq, atəşkəsə nail olmuş, ATƏT-in Minsk Qrupu çərçivəsində və digər beynəlxalq təşkilatların xətti ilə ardıcıl və məqsədyönlü iş görür. Artıq göstərilən ictimai-siyasi proseslərin ağır nəticələri, vətəndaş müharibəsi təhlükəsi aradan qaldırılmış, 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında baş vermiş dövlət çevrilişi cəhdlərinin qarşısı qətiyyətlə alınmış, qanunsuz silahlı dəstələr, terrorçu və təxribatçı qruplar zərərsizləşdirilmiş, hərc-mərcliyə son qoyulmuş, geniş ordu quruculuğu işləri aparılaraq, Vətənimizi təcavüzdən qorumağa qadir nizami ordu yaradılmışdır. Azərbaycan Respublikasının ümumxalq səsverməsi ilə qəbul edilmiş konstitusiyasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan edilmişdir. Azərbaycan dövləti siyasi-hüquqi potensialından tam istifadə etməklə, bu məqsədə nail olmaq və müvafiq hüquqi mexanizmlər yaratmaq üçün tədbirlər görür. Konstitusiyada irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əqidəsindən, siyasi və sosial mənsubiyyətindən və sair hallardan asılı olmayaraq, hər bir insanın hüquq və azadlıqlarının müdafiəsi qanunvericilik, icra və məhkəmə orqanları qarşısında ümdə vəzifə kimi qoyulmuşdur. Artıq hüquqa və ədalətə söykənən, vətəndaş cəmiyyətinin və bazar iqtisadiyyatının inkişafına tam zəmanət verən qanunvericilik bazasının əsası qoyulmuş və onun təkmilləşdirilməsi davam etdirilir. Ölkəmizdə demokratik cəmiyyətin formalaşdırılması üçün hər cür şərait yaradılmışdır. Azərbaycanda çoxpartiyalılıq əsasında demokratik yolla parlament seçilmiş, siyasi plüralizm, şəxsiyyət, söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsipləri bərqərar olmuşdur. Ardıcıl surətdə həyata keçirilən köklü iqtisadi, sosial və hüquqi islahatların təməlində insana qayğı və insan ləyaqətinə hörmət dayanır.”

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 13 yanvar


## Qışda da arıqlamaq mümkündür



Payız aylarında orqanizm yavaş-yavaş soyuqlara hazırlaşmağa başlayır: çəki artır, passivlik çoxalır. Qış fəsli yaxınlaşdıqca dərialtı piyin əmələ gəlməsi prosesi fəallaşır və bunun nəticəsində orqanizm həmin dövrdə özünü enerji ehtiyatı ilə təmin edir.

AZƏRTAC xəbər verir ki, soyuq vaxtlarda vitamin və qidalı maddələrin çatışmazlığı yaranır. Ona görə də gündəlik rasionun cüzi azalması fiziki və psixi cəhətdən neqativ təsir göstərir. Piy toxuması iştahanın, bədən çəkisinin, reproduktiv funksiyaların və hətta psixi sağlamlığın requlyasiyasında iştirak edən leptin hormonunu hazırlayır. Çəkinin kəskin azalması isə hormonal tarazlığın pozulmasına aparıb çıxarır. Artıq çəki narahatlığa səbəb olur və pəhrizlərə meyli artırır. Qış mövsümündə pəhrizlərə daha ehtiyatlı yanaşmaq lazımdır. Elə pəhriz seçmək lazımdır ki, orqanizmin fəaliyyətini pozmasın və uğurlu nəticələr versin.

Artıq çəkidən azad olmaq üçün gündəlik qida rasionundan başlamaq lazımdır. Təklif olunan ilk xörək şorbadır. Şorba mədəyə doluluq hissi verərək onun divarındakı xüsusi reseptorları aktivləşdirir və onun dolması haqda siqnal verir. Nəticədə iştaha azalır və ikinci yemək həmişəkindən 20-40 faiz az yeyilir. Yağsız ət şorbalarına, tərəvəz bulyonlarına üstünlük vermək daha yaxşıdır. Məsələn, 1,5 litr su, 2-3 ədəd kök, 2 pomidor, bir neçə kərəviz və kəvər yarpaqlarından ibarət bulyon hazırlayıb içərisinə bir azca kəklikotu, zirə və keşniş qatmaq olar.

İkinci yemək adətən daha kalorili olur. Onu hazırlayarkən yüngül mayonez, yağsızlaşdırılmış süd, smetan və kəsmikdən istifadə etmək olar. Kartof qızardarkən kərə yağı bitki ilə əvəz edilməlidir. Həmin qaydalara əməl edilməsi ziyan vermir və soyuq qış aylarında dərinin su-lipid tarazlığını qoruyur. Yeməyə qatılan müxtəlif ədviyyatlar isə həzm şirəsinin hazırlanmasını sürətləndirir, maddələr mübadiləsini fəallaşdırır, nəticədə qida tam həzm olunur və yağ toplanmır.



## *Təbrik*

*Bu gün Vüqar Tofiq oğlu Quliyevin 46 yaşı tamam olur! Ad günü münasibəti ilə qardaşı Çingiz Quliyev ailəsi adından onu ürəkdən təbrik edir! Vüqara uzun ömür, cansağlığı və həyatda və işlərində bol-bol nailiyyətlər arzulayır.*

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə IV kurs tələbəsi Carçıyeva Nazilə Xaliq qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Hüseynova Nəzifə Məhəmməd qızının adına olan 1 otaqlı 10 saylı mənzilə Bakı şəhər İcra Hakimiyyətinin 1006 saylı 14.08.1997-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş 4"a" saylı 08.08.1997-ci il tarixli protokolu itdiyi üçün etibarsız sayılır.

* * *

Bakı şəhər İcra Hakimiyyətinin Mənzil-Kooperativ Təsərrüfat İdarəsi tərəfindən Əmiraslanova İlhamə Yusif qızının adına verilmiş 010195 saylı order itdiyi üçün etibarsız sayılır.

## Ronaldo UEFA-nın simvolik komandasında yer alıb



"Real Madrid" klubunun beş futbolçusu, o cümlədən Kriştiano Ronaldo azarkeşlərin səsverməsinin nəticələrinə görə, UEFA-nın 2017-ci il üçün ən yaxşı oyunçulardan ibarət simvolik komandasına daxil olub. AZƏRTAC xəbər verir ki, ötən ilin ən yaxşı futbolçuları sırasında Ronaldo ilə yanaşı, Madrid komandasının müdafiəçiləri Serxio Ramos və Marselo, yarımmüdafiəçiləri Toni Kross və Luka Modriç yer alıblar. Simvolik komandanın tərkibinə habelə qapıçı Canluci Buffon ("Yuventus"), müdafiəçilər Dani Alves ("Yuventus"/Pari Sen-Jermen), Corco Kellini ("Yuventus"), yarımmüdafiəçilər Kevin de Brüyne ("Mançester Siti"), Eden Azar ("Çelsi"), hücumçu Lionel Messi ("Barselona") daxildir. Komandaya namizədliyi irəli sürülən 50 oyunçuya azarkeşlər tərəfindən ümumilikdə 8,7 milyondan çox səs verilib. Ən çox səsi Serxio Ramos (588 min) toplayıb.

## Firdovsi Umudov Azərbaycan Güləş Federasiyasının birinci vitse-prezidenti təyin olunub



Azərbaycan Güləş Federasiyasının (AGF) rəhbərliyində dəyişiklik edilib. AZƏRTAC AGF-yə istinadla xəbər verir ki, federasiyanın prezidenti Fazil Məmmədovun əmri ilə qurumun birinci vitse-prezidenti vəzifəsinin müvəqqəti icraçısı Sahib Ələkbərov tutduğu vəzifədən azad edilib. AGF-in birinci vitse-prezidenti vəzifəsinin icrası Firdovsi Umudova həvalə edilib.

F.Umudov sərbəst güləş üzrə yığma komandanın baş məşqçisi, Əməkdar Məşqçi, beynəlxalq dərəcəli idman ustası, Dünya Güləş Birliyi Məşqçilər Assosiasiyasının üzvüdür. İdmançı karyerası ərzində dəfələrlə Azərbaycan çempionu, gənclər arasında Avropa çempionatının, tələbələr arasında dünya çempionatlarının mükafatçısı, dünya kubokunun qalibi olub. Güləşin inkişafındakı xidmətlərinə görə o, 2009-cu, 2012-ci və 2015-ci illərdə Azərbaycanın, 2012-ci ildə dünyanın ən yaxşı məşqçisi seçilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə "Şöhrət" ordeni, "Tərəqqi" medalı və "Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu" ilə təltif olunub.

## "Azərbaycan yığması kifayət qədər güclü komandadı"



"Yeni ildən sonra Pavel Georgiyeviçlə görüşdüm və o mənə yığmanı çalışdırmağı təklif etdi. Mən də razılıq verdim". Apasport.az saytının məlumatına görə, bu sözləri Moldova yığmasının yeni baş məşqçisi Aleksandr Spiridon deyib. Yanvarın 30-da Antalyada millimizlə yoxlama görüşü keçirəcək Moldova yığması bu gün Spiridona həvalə edilib. Təqdimetmə mərasimindən sonra jurnalistlərin önünə çıxan 57 yaşlı mütəxəssis iddialı danışıb. O, söhbət əsnasında yığmamız barədə də fikirlərini bildirib: "Bu il bizi Millətlər Liqası kimi maraqlı turnir gözləyir. Niyə də Moldova yığması Avropada sürpriz nəticəyə imza atmasın? Çoxdandı Moldova futbolunu izləmirəm. Bu mənada mənə çalışmaq çox maraqlıdı. Yanvarın 27-də və 30-da bizi Cənubi Koreya və Azərbaycanla yoxlama oyunları gözləyir. Hər ikisi kifayət qədər güclü komandadı. Sabahdan toplanışa başlayırıq".

## Messi ən yaxşı 10 bombardir sırasına daxil olub



"Barselona"nın argentinalı hücumçusu Lionel Messi futbol üzrə İspaniya Kubokunun 1/8 finalında "Selta" ilə keçirilən oyunun birinci hissəsində dubl edib. SİA-nın məlumatına görə, o, turnirdə vurduğu qolların sayını 46-ya çatdıraraq, Kubok tarixinin ən yaxşı 10 bombardiri sırasına daxil olub. Hazırda reytinqdə birinci yeri hücumçu Telmo Sarra tutur. O, 1939-1957-ci illər ərzində 81 qol vurub.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 5500